www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 may 2017-ci il Çərşənbə № 93 (6707) Qiyməti 60 qəpik

**Xəbər**

## Azərbaycanda şiş xəstəlikləri artır - həkimlərdən SOS xəbərdarlığı

yazısı səh.13-də

**Gündəm**

### "Deputatların mandatını almaq" qanunu ilk oxunuşdan keçdi



"Milli Məclis deputatının etik davranış qaydaları haqqında" qanun layihəsi parlamentdə gərgin müzakirələrə səbəb oldu

yazısı səh.7-də

### Bakıda "FETÖ işi" ilə bağlı ilk dəfə məhkəmə başladı

yazısı səh.4-də

### Bu gün Türkçülük Günüdür

yazısı səh.3-də

### Fazil Mustafanın "bölgə təxəllüslərindən imtina edin" təklifinə sərt reaksiyalar

yazısı səh.10-da

### Kreml ideoloqunun Bakı səfərində əsas hədəf

yazısı səh.9-da

### Sülh təşəbbüsləri böhranda - diplomatlar öz yerini hərbçilərə verir

yazısı səh.11-də

### Deputat at və eşşək əti satanlar həbs cəzası tələb edir

yazısı səh.15-də

### Lənkəranda dayı diqqətsizlik edib maşınla bacısı oğlunu öldürdü

yazısı səh.14-də

### Binəqədidə ölən xəstənin yaxınlarından həkimə şok ittihamlar

yazısı səh.15-də

### Jurnalistlərin əsas yolunu bağladılar - etirazlar var

yazısı səh.12-də

# GÖZLƏR SOÇİDƏ - ƏRDOĞANLA PUTİNİN KRİTİK GÖRÜŞÜ

Bu gün Türkiyə və Rusiya prezidentləri qısa fasilədən sonra yenidən bir araya gələcəklər; masada nələr var? Az sonra Trampla görüşəcək Türkiyə lideri ABŞ-a Moskvanın hansı mesajını aparacaq? Kremlin ideoloqu səfər öncəsi Bakıya gəldi - səbəb...




yazısı səh.8-də

## Avropa Birliyi - Azərbaycan danışıqları: saziş nə vaxt imzalanacaq?

AB-nin Bakıdakı təmsilçisi danışdı; qurum ilk dəfə olaraq Dünya Ticarət Təşkilatına daxil olmayan bir ölkə ilə hərtərəfli razılaşmaya imza atmalıdır; əsas müzakirə olunan məsələlər...

yazısı səh.5-də



*Həmid Herisçi ittihamlara cavab verdi:*

### "Rövşən Əliyev, sən Azərbaycana gələ bilmirsən, amma Duqin gəlir"

yazısı səh.12-də



*Novella Cəfəroğlu:*

### "Ombudsman olmaq niyyətim yoxdur"

yazısı səh.6-da



### Tanınmış jurnalistin qəfil ölümü-həmkarları Zöhrab Əmirxanlıdan danışdılar

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 93 (6707) 3 may 2017



## Lökbatandakı palçıq vulkanı püskürdü

**Mayın 2-də saat 08 radələrində Bakı şəhərindən 15 km cənub-şərq istiqamətində, Xəzər dənizinin sahilində, neft-mədən sahəsində yerləşən Lökbatan palçıq vulkanında püskürmə baş verib.**

Bu barədə virtualaz.org-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi Lökbatan ərazisində püskürən vulkanla bağlı məlumat yayıb.

Mərkəzin İnformasiya şöbəsindən virtualaz.org-a verilən məlumata görə, mayın 2-də yerli vaxtla saat 07:55:51-də Lökbatan ərazisində vulkan püskürüb.

Bildirilib ki, vulkanın dərinliyi 4 km, püskürmənin davam etmə müddəti 4 dəqiqə olub: "Vulkandan öncə və sonra zəlzələ qeydə alınıb".

Xatırladaq ki, 1810-cu ildə qeydə alınmış Lökbatan palçıq vulkanı dünyanın ən aktiv 5 vulkanından biri olmaqla püskürməsinə görə dünya rekordçusudur və vulkanın hazırkı püskürməsi sayca 25-cidir.

## Bakıda bu ərazilərdə pulsuz internet olacaq

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşəbbüsü ilə Bakı Telefon Rabitəsi İstehsalat Birliyi ("Baktelecom") tərəfindən istismara verilən "İctimai İnternet" şəbəkəsi IV İslam Həmrəyliyi Oyunlarına qədər bir sıra ərazilərdə də aktiv olacaq.**

Nazirlikdən modern.az-a verilən məlumata görə, tezliklə Dənizkənarı Milli Park ərazisinin "Ağ şəhər" zonası, "Sahil bağı" və Heydər Əliyev Mərkəzinin parkını ziyarət edən insanlar pulsuz "wi-fi" şəbəkəsindən yararlana biləcəklər. Artıq adıçəkilən ərazilər müvafiq avadanlıqlarla təchiz edilib, təhlükəsizlik tədbirləri, eləcə də risklər nəzərə alınaraq aktiv zonalarda proqram təminatının tətbiqinə başlanılıb.

"Baku loves you" brendi adı altında təqdim edilən layihənin əhatə dairəsi genişləndirilir və təkmilləşdirmə işləri aparılır. Belə ki, yaxın zamanda pulsuz "wi-fi" istifadəçiləri yeni, daha rahat qeydiyyat sistemi ilə şəbəkəni aktiv edə biləcəklər. Qeyd edək ki, hazırda mobil telefon, notebook, planşet və s. portativ cihazlarla şəbəkə siyahısından "Baktelecom"u seçməklə mobil nömrə vasitəsilə qeydiyyatdan keçib internetdən istifadə etmək mümkündür.

Məlumat üçün bildirək ki, "Dənizkənarı Milli Park" və "İçərişəhər" Tarix-Memarlıq Qoruğu ərazisində 100 minə qədər istifadəçi pulsuz internet xidmətindən istifadə edib və yay mövsümünə doğru bu göstəricinin artacağı proqnozlaşdırılır.

Daha çox istifadəçiyə xidmət göstərilməsi məqsədilə şəbəkənin aktiv olduğu ərazilərdə quraşdırma nöqtələrinin sayı artırılacaq, əhalinin sıx istirahət etdiyi digər parklar da il ərzində ictimai internet şəbəkəsinə qoşulacaq.

## İƏT baş katibi Azərbaycana gəlir

**İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Ahmed Əl-Otaimen 3-5 may tarixlərində Azərbaycanda rəsmi səfərdə olacaq. APA-nın XİN-in saytına istinadən verdiyi məlumata görə, səfər çərçivəsində Yusif bin Ahmed Əl-Otaimenin xarici işlər naziri Elmar Məmmədyarovla görüşü nəzərdə tutulub.**

Görüşdən sonra birgə mətbuat konfransı keçiriləcək.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərində də abunə qəbul olunur.

# Ərdoğan yenidən AKP üzvü oldu



**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan 33 ay sonra yenidən qurucusu olduğu Ədalət və İnkişaf Partiyasının (AKP) üzvü olub.**

APA-nın verdiyi məlumata görə, aprelin 16-da qəbul edilən konstitusiyaya əlavə və dəyişikliklər prezidentə partiya üzvü və partiya sədri olmaq hüququ verib.

Dünən Ərdoğanın partiyaya üzv olması ilə bağlı Ankarada AKP-nin mərkəzi qərargahında mərasim keçirilib. Mərasimdə AKP rəhbər orqanlarının üzvləri, millət vəkilləri qatılıblar. Binəli Yıldırım Ərdoğana AKP-yə üzvlüyü ilə bağlı bəyannaməni təqdim edib və Ərdoğan sənədi imzalayıb. Bununla da Ərdoğan partiyaya rəsmən yenidən üzv olub. Növbəti mərhələdə Ərdoğanın AKP-nin sədri seçilməsi üçün mayın 21-də növbədənkənar qurultay keçiriləcək.

Qeyd edək ki, Ərdoğan prezident seçilməsi ilə əlaqədar 2014-cü ilin avqustunda AKP üzvlüyündən və partiyanın sədri postundan istefa verib.

Xatırladaq ki, AKP 14 avqust 2001-ci ildə yaradılıb. Partiya 2002-ci il noyabrın 3-də keçirilən parlament seçkilərində qələbə çalaraq hakimiyyətə gəlib. Həmin vaxt məhkəmənin barəsində siyasətlə məşğul olmasının qadağan edilməsinə dair qərarı olduğu üçün R. T. Ərdoğan seçkilərdə iştirak edə bilməyib.

Barəsindəki siyasi qadağa aradan qaldırıldıqdan sonra 9 mart 2003-cü ildə Siirtdən deputat seçilib. Bununla əlaqədar 11 mart 2003-cü ildə Abdulla Gül hökuməti istefa verib. R. T. Ərdoğanın rəhbərliyi ilə həmin il martın 14-də yeni hökumət qurulub. AKP sədri olduğu 2002, 2007 və 2011-ci illərdə keçirilən parlament, 2004, 2009 və 2014-cü illərdə bələdiyyə seçkilərində partiyası qalib gəlib.



## Bu günün havası- yağış yağacaq

**Mayın 3-də Bakı və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Bəzi yerlərdə zəif duman olacaq. Səhər və gündüz yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var.**

Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. ETSN-dən APA-ya verilən məlumata görə, havanın temperaturunun gecə 11-14° isti, gündüz 20-25° isti, Bakıda gecə 12-14° isti, gündüz 23-25° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 65-75%, gündüz 40-50% təşkil edəcək.

Tibbi-meteoroloji proqnoza əsasən, mayın 5-dək Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 10-15° isti, gündüz 23-28° isti, dağlarda gecə 5-10° isti, gündüz 12-17° isti olacağı gözlənilir.

## BP ilin sonunadək Azərbaycanda yeni layihə istismara verəcək

**BP şirkəti 2017-ci ilin I rübündə mənfəətini ötən ilin analoji dövrü ilə müqayisədə 3 dəfə artıraraq 1,51 mlrd. dollara çatdırıb. "APA-Economics" şirkətin hesabatına istinadən xəbər verir ki, buna səbəb neftin qiymətinin və hasilatın artması, xərclərin azalmasıdır.**

Cari ilin ilk rübündə BP-nin əsas rəqibləri olan "Exxon Mobil", "Chevron" və "Total" şirkətləri də yuxarıda qeyd edilən səbəblərə görə mənfəətini artırmağı bacarıb.

Analitiklər BP-nin rüblük mənfəətinin 1,26 mlrd. dollar təşkil edəcəyini proqnozlaşdırıb.

Şirkətin açıqlamasında deyilir ki, cari ildə BP 8 yeni layihənin icrasına başlayacaq ki, bunların bəziləri Azərbaycan və Omanı əhatə edəcək. Şirkət bunun hesabına onilliyin sonunadək sutkalıq neft hasilatını 800 min barelə çatdırmaq niyyətindədir. "Yeni layihələr hesabına hasilatın artırılması cari ilin ikinci yarısında pul vəsaitlərinin hərəkətində müsbət dinamikaya səbəb olacaq", - deyə açıqlamada deyilir.

## Tramp Obamaya görə jurnalisti qovdu

**ABŞ prezidenti Donald Tramp Obamanın onun telefonlarını dinləməsi ilə bağlı "CBS" telekanalının jurnalisti Con Dikersonun israrlı suallarına etiraz edərək, müsahibəni yarımçıq dayandırıb.**

Azvision.az xəbər verir ki, jurnalistin israrlı olması Trampı özündən çıxarıb və o, "bu qədər kifayətdir" deyərək jurnalisti otaqdan qovub.

Qeyd edək ki, bundan öncə Tramp telefonlarının Obama tərəfindən dinlənildiyini demişdi: "Obama "Trump Tower"də mənim zəfərimdən öncə telefonlarımı dinlədib".

## Brüsseldə "NATO + Azərbaycan" formatında müzakirələr

**Mayın 2-də Brüssel şəhərində NATO -nun mənzil-qərargahında, Tərəfdaşlıq və Kooperativ Təhlükəsizlik Komitəsində Azərbaycan Respublikasının 2017-ci il üzrə "Planlaşdırma və Analiz Prosesi"nin qiymətləndirmə sənədinin " NATO + Azərbaycan" formatında müzakirə iclası keçirilib.**

APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, iclasda nazirliyin nümayəndələri ilə yanaşı, müzakirə mövzularına müvafiq olaraq ölkəmizin digər aidiyyəti qurumlarının səlahiyyətli nümayəndələri də iştirak ediblər.

Görüşdə müdafiə sahəsində aparılan islahatlar, NATO və tərəfdaş ölkələrlə əməkdaşlıq, tərəfdaşlıq məqsəd və öhdəliklərin yerinə yetirilməsi, NATO-Azərbaycan Hərbi Təhsil və Təlim sahəsində birgə Fəaliyyət Planı, eləcə də Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində aparılan fəaliyyətlər, sülhməramlılarımızın Əfqanıstandakı "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasına verdiyi töhfə və digər məsələlər müzakirə olunub.



## Milli Qəhrəmanın qardaşı təhsil haqqından azad olundu

**Azərbaycan Texniki Universitetinin (AzTU) Elmi Şurasında Milli Qəhrəman Çingiz Qurbanovun qardaşı Beydulla Qurbanovun təhsil haqqı məsələsi müzakirə olunub.**

Universitetin mətbuat xidmətinin rəhbəri Nicat Abdullayevin verdiyi məlumata görə, AzTU-nun rektor əvəzi, Elmi Şuranın sədri Xalıq Yahudov bildirib ki, Beydulla Qurbanov universitetin Avtomatika və kompyuter texnikası (AKT) fakültəsində ödənişli əsaslarla oxuyur. O, şura üzvlərinə Beydulla Qurbanovun təhsil haqqının universitetin hesabına ödənilməsini təklif edib və qərar yekdilliklə qəbul olunub.

İclasda bildirilib ki, Milli Qəhrəmanın ailə üzvlərinə Bakının Xətai rayonunda 5 otaqlı mənzil və Qusar rayonunda ev tikmək üçün torpaq sahəsi verilib. Bundan əlavə, onların digər sosial problemlərinin həlli də aidiyyəti dövlət orqanlarının nəzarətindədir.

Qeyd edək ki, Milli Qəhrəman Çingiz Qurbanov özü də Azərbaycan Texniki Universitetinin məzunu olub.

## Bakı və Abşeronda qrunt sularının səviyyəsi qalxıb

**Aprel ayında Bakı və Abşeronda subasma proseslərinin dinamikasında aktivlik qeydə alınıb, ərazilərin qrunt suları ilə basılması müşahidə olunub. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov APA-ya deyib ki, Binəqədi I mədən yaşayış sahəsinə düşən atmosfer yağıntılarının təsirindən subasma prosesi aktivləşib.**

Onun sözlərinə görə, Binəqədi qəsəbəsi, Məlik Aslanov küçəsi və ətraf ərazilərdə atmosfer yağıntıları qrunt sularının səviyyəsinin qalxmasına səbəb olub, nəticədə ərazinin qrunt suları ilə basılması baş verib: "Bundan əlavə, Maştağa - Zabrat subasma sahəsi, Daş Karxanası yaşayış massivi və Qala qəsəbəsində qrunt sularının səviyyəsinin qalxması nəticəsində subasma prosesinin dinamikasında aktivlik qeydə alınıb".

Ə. Qaralov qeyd edib ki, Zabrat - Məhəmmədi su basma sahəsində gölün səviyyəsinin qrunt suları hesabına qalxması və ətraf ərazilərin su ilə basılması müşahidə olunub.




# 3 may Türkçülük Günüdür

**Bu gün - 3 may Türkçülük Günüdür. Dünya türklərinin qeyd etdikləri bu tarix Azərbaycanda da hər il xatırlanır, amma istər iqtidar, istərsə də müxalifət düşərgəsində bu gün yüksək səviyyədə qeyd olunmur. 3 mayın tarixi ilə bağlı hər ilin bu vaxtları geniş müzakirələr açılır. Bu il də eyni hal sosial şəbəkələrdə bir daha özünü büruzə verməkdədir. Bəzi mənbələrə görə, 3 may Türkçülük Gününün tarixi 1277-ci ildən başlayır.**

Hazırda Azərbaycan və Türkiyədəki milliyyətçilər arasında daha çox populyar olan ortaq versiya var. Həmin versiyaya və vikipediya məlumatlarına görə, bu bayramın keçirilməsinin səbəbi Türkiyənin böyük şairi Hüseyn Nihal Adsızın üzərində qurulan məhkəmə prosesi ilə bağlıdır. İrqçilik iddiası ilə Sabahattin Ali tərəfindən məhkəmələrə çəkilən şairin üzərindəki proseslərdən birində - 3 may 1944-cü ildə böyük etiraz nümayişi olub. Sonradan "Ankara nümayişi" adını alan həmin yürüşü anmaq məqsədilə bu gün qeyd olunmağa başlayıb. İlk dəfə 3 may 1945-ci ildə türk dünyasının böyük isimləri Nihal Atsız, Zeki Velidi Togan, Nejdet Sançar ve Reha Oğuz Türkkan başda olmaqla, 10 məhkum tərəfindən Tophane hərbi həbsxanasında qeyd edilib.

1945-ci ilin 29 martınadək davam edən məhkəmə prosesində Türkiyə siyasətinin 23 önəmli şəxsi haqqında "vətənə xəyanət" maddəsi ilə həbs qərarı çıxarılıb. Zeki Velidi Togan, Alparslan Türkeş, Nihal Atsız, Reha Oğuz Türkkan, Cihat Savaş Fer, Nurullah Barıman, Fethi Tevetoğlu, Nejdet Sançar, Cebbar Şenel və Cemal Oğuz Öcal kimi milli düşüncəli insanlar həbsxanalarda ağır işgəncələr görüblər. Onlar vəkillərinin müraciətləri əsasında iki il sonra bəraət alıblar.

1954-cü ildən etibarən bu gün Nihal Atsızın təşəbbüsü ilə Türkçülük Günü kimi qeyd olunmağa başlayıb. Alparslan Türkeş Milliyyətçi Hərəkat Partiyasını qurandan bu günə qədər 3 may daha geniş şəkildə keçirilir.

3 may Türkçülük Gününün Azərbaycanda qeyd olunması daha çox sabiq prezident Əbülfəz Elçibəyin sayəsində özünə yer tapıb. 1992-ci ilin 3 mayında Bakıya səfərə gələn türk nümayəndə heyətinin tərkibində olan Alparslan Türkeş bir milyon insanın qarşısında Elçibəylə bərabər çıxış edərkən, toplantıya qatılanları "bozqurd" işarəti ilə salamlayıb...

## Sabir Rüstəmxanlı: "Türkçülük bayramı yüksək səviyyədə keçirilməli, hətta rəsmiləşdirilməlidir"



**VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı "Yeni Müsavat"a açıqlamasında bu günün önəmindən danışdı:** "Əslində bayram olaraq, elə də qədim bir tarixi yoxdur. Türklərin bayram kimi qeyd etməli olduqları çox tarixi hadisələr var. Türklərin çox zəfərləri olub ki, bunların hər biri bayram kimi qeyd oluna bilər. Açığı deyim ki, Türkiyədə bu gün o qədər də geniş qeyd olunmur. Bu günü ən çox qeyd edən Azərbaycandır. Ölkəmizdə bir az təvazökarlıqdan kənar olsa da, xanımım Tənzilə Rüstəmxanlının rəhbərlik etdiyi Azəri-Türk Qadınlar Birliyinin xətti ilə hər il bu günü önəmli yerlərdə yüksək səviyyədə qeyd edirik. Bu il ailəmizdə olan bəzi məsələlərə görə yaxşı hazırlaşa bilmədik. Bu günlə bağlı türk dünyasının hər yerindən sənət adamları çağırılır. İlin 365 gününü terror və başqa hadisələrlə dolu günlərlə keçiririk. İlin heç olmasa belə günlərini sevinclə qeyd etməli, başımızı dik tutmalıyıq, çünki biz tarixin qədimlərindən gələn böyük xalqlardan biriyik. Bu baxımdan, türkçülük bayramı yüksək səviyyədə keçirilməli, hətta rəsmləşdirilməlidir. Xalqın milli kəsimi bu bayramı qeyd edir. Millətçilik şüuru inkişaf etmiş şəxslər bunu əsasən qutlayırlar. Halbuki bu günü türk dünyasında hər kəs qeyd etməlidir. Fərqi yoxdur hansı tarixdən başlayıb, kimlərin adı ilə bağlıdır. Önəmli olan odur ki, belə bir bayramımız var. 3 may ilin ən gözəl günlərindən biridir. Baharın da ən gözəl vaxtlarına təsadüf edir. Böyük şəkildə edilməsə də, mətbuat və digər vasitələrlə bu günü daim xatırlatmaq lazımdır ki, bu gün türklərin bayramıdır".

**S.Rüstəmxanlı türklərin bir olması baxımından da 3 mayın əhəmiyyətindən söz açdı:** "Bir millət donuq su kimi yaşasa, gec-tez iylənəcək. Hər bir millət axar su kimi yaşamalı, daim hərəkətdə olmalıdır. Bu türk bayramı türklərin yaşadığı hər yerdən bir rüzgar kimi əsib keçməlidir. Bizim Bakıya dəvət etdiyimiz türk sənətçilərin buradakı çıxışları böyük maraqla qarşılandı, bundan sonra həmin sənətçilər Türkiyəyə də dəvət olundular. Belə proseslər davamlı olmalıdır. Türk dünyasının ən gözəl sənətçiləri belə bayramlarda bir araya gəlməlidirlər. Biz türklükdən danışırıq, amma kimsə barmaqla göstərə bilərik ki, qırğızların ən gözəl sənətkarı, yaxud şairi kimdir? Halbuki bir-birimizə çox yaxın olmalıyıq. Biz bu bayramdan türk dünyasının mədəniyyətinin sirlərinin açılması üçün istifadə etməliyik".

**Moderator.az-a açıqlama verən KXCP sədri Mirmahmud Mirəlioğlu bu günə hörmət və ehtiram bəslədiyini vurğulayıb:**

"Şübhəsiz ki, biz bu günə, onun önəminə hörmət bəsləməli, onu təqdir etməliyik. Bu, 1944-cü il hadisələri ilə bağlıdır. Nihal Atsızın ruhu şad olsun. Bu, onun başlatdığı hərəkatla bağlıdır.

Biz bu günü 24 iyun tarixində - türklüyü bizə tanıtdıran, bizim türk kimliyimizi çağdaş dönmdə siyasi gündəmə gətirən Ə.Elçibəyin doğum günü münasibətilə keçirirk. 17 ildir ki, bu qərar qəbul edilib və 17 ildir ki, 24 iyun tarixini qeyd edirik.

Yaxşı olardı ki, 3 may günü də türklük günü kimi bütün türk cümhuriyyətlərində qeyd olunardı. Lakin təəssüflər olsun ki, bu belə deyil. Bu və digər bayramların birgə keçirilməsi təqdirəlayiq olar".

❑ **Cavanşir ABBASLI**

# "Əli İnsanov qərardan çox narazıdır"

## Sabiq nazir apelyasiya şikayəti verəcək; Mehman Hüseynov və İlqar Məmmədovdan xəbər var; Seymur Həzi ailəsi ilə danışıb

**Aprelin 26-da barəsində 7 il 5 gün həbs cəzası oxunan sabiq səhiyyə naziri Əli İnsanov Apelyasiya Məhkəməsinə müraciət edəcək. Hökmdən sonra bir dəfə onunla görüşən vəkili Toğrul Babayev mayın 3-də Ə.İnsanovla növbəti dəfə görüşəcək.**


Əli İnsanov


Mehman Hüseynov


İlqar Məmmədov


Seymur Həzi

Sabiq nazirin son durumu ilə bağlı vəkil bunları dedi: "Hökmün surətini almışıq, apelyasiya şikayət hazırlayırıq. Apelyasiya Məhkəməsinə verəcəyimiz şikayət bu həftə təqdim olunacaq. Hökmdən sonra onunla görüşmüşəm. Özünü normal hiss edir. Təbii ki, Əli İnsanovun hökmə münasibəti mənfidir, qərardan çox narazıdır. Buna görə də şikayət veriləcək. Prosedura qaydaları elədir ki, Apelyasiya Məhkəməsinin qərarından sonra hökm qanuni qüvvəyə minmiş hesab olunur və bundan sonra icra oluna bilər. Bu baxımdan, Əli İnsanov Apelyasiya Məhkəməsinin qərarına qədər 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılacaq".

2 il müddətinə azadlıqdan məhrum edilən və aprelin 22-də 14 saylı cəzaçəkmə müəssisəsinə köçürülən gənc blogger Mehman Hüseynov hazırda karantindədir. Karantində olduğuna görə blogger ailəsi və vəkili ilə nə görüşə, nə də telefonla danışa bilir.

**Bu barədə "Yeni Müsavat"a onun vəkili Elçin Sadıqov məlumat verib:** "İcazə kağızı alandan sonra onunla görüşə biləcəm, bu barədə müraciət etmişəm. Sonuncu dəfə saxlanıldığı yerdən narazı olduğu barədə xəbər tutdum. Hazırda karantində olduğuna görə Mehman Hüseynov ailəsi ilə də görüşə və telefonla əlaqə saxlaya bilmir. Karantinin müddəti 15 gündür. Bu müddət ərzində o ailəsi ilə görüşə bilməz".

**Günlər öncə səhhətində problemlərin olduğu barədə xəbər verdiyimiz REAL Hərəkatının sədri İlqar Məmmədovun durumu müəyyən qədər yaxşılaşıb. Bu barədə qəzetimizə danışan onun həyat yoldaşı Vəfa Məmmədova bunları dedi:** "Ağrıları bir az səngiyib. Axır vaxtlar özünü bir az yaxşı hiss edir. Ümumi vəziyyətində elə də böyük dəyişiklik yoxdur. Düzdür, ağrılar az da olsa var. Çünki heç bir müalicə olunmayıb. Sadəcə, öz gücümüzdən istifadə olunan müalicədir. Həkim müayinəsindən də keçməyib. İlqar xarici həkim tələb etmişdi, o müraciət də hələ təmin edilməyib. Bu həftənin bazar günü görüşəcəyik. İki gün öncə zəng etmişdi. Vəziyyəti pis deyildi. Səhhəti ilə bağlı cəzaçəkmə müəssisəsinin rəhbərliyinə müraciət olunub. Qırmızı Xaç Komitəsi İlqar xəstələnəndən sonra ona baş çəkib. Bir də Ədliyyə Nazirliyinin tibb işçiləri idarədən getmişdilər. Ənənəvi bir yoxlanış olub.

**AXCP sədrinin müavini Seymur Həzinin atası Məşgül Həziyev oğlunun vəziyyətinin normal olduğunu bildirdi:** "Seymur telefonla mayın 2-də danışdı. Ümumi vəziyyəti pis deyil. Səhhəti normaldır. Heç bir narahatçılığı yoxdur. Saxlanıldığı yerlə bağlı elə bir söz demir. Amma Azərbaycan həbsxanalarının nə vəziyyətdə olduğunu deməyə gərək yoxdur".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 93 (6707) 3 may 2017

# "Düşmən ortaq təlimlərdən ciddi nəticə çıxarmalıdır" - hərbi ekspertdən işğalçıya savaş xəbərdarlığı

## "Türkiyə təcrübəsi torpaqlarımızın azad edilməsində lazım olacaq"

**Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, Azərbaycanda iki ölkənin Silahlı Qüvvələrinin birgə döyüş atışlı taktiki təlimləri davam edir. Təlimlərdə 1000 nəfərədək şəxsi heyət, 80-dək hərbi texnika, 60-dan çox artilleriya qurğusu və minaatanlar Hərbi Hava Qüvvələrinin 12 ədəd döyüş və nəqliyyat helikopteri qruplaşmanın havadan mühafizəsi məqsədilə müasir müdafiə kompleksləri ilə silahlanmış hava hücumundan müdafiə və zenit-raket bölmələrinin iştirak etdiyi bildirilir.**

Təlimlərdə müdafiə olunan düşmənə qarşı birgə hücum əməliyyatlarının təşkili və aparılması, zirehli qrupların və taktiki hava desantının tətbiqi, hücumda olan qoşunların dəstəyi üzrə hava hücumundan müdafiə qoşunlarının qarşılıqlı fəaliyyəti məsələlərinin öyrənilməsi mövzusunda tapşırıqlar yerinə yetirilir. Mayın 1-də başlanan təlimlər mayın 5-dək davam edəcək.

Təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsini həyata keçirməklə koordinasiyanı inkişaf etdirmək, qərargahların müştərək planlaşdırmaları, bölmələrin hazırlığı və əməliyyatları icra etmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır.

Gözlənildiyi kimi, iki qardaş ölkə arasında ortaq təlimlər Ermənistanda həyəcan yaradıb. Ermənistan



mediası təlimlərin bəhanə olduğunu, Azərbaycanın Qarabağda əməliyyatlara hazırlaşdığını bildirir. Ermənilər hətta təlim adı altında Azərbaycan tərəfinin qoşunlarını cəbhəyə yığdığını da yazır. Bəs sözügedən birgə hərbi təlimlərin Qarabağ münaqişəsinin həllinə hansısa şəkildə açıq və ya dolayısı formada olsa da təsir etməsi mümkünmü?

**Hərbi ekspert, istefada olan polkovnik-leytenant Üzeyir Cəfərov bu hərbi təlimlərin Azərbaycan ordusunun döyüş qabiliyyətini, operativliyini daha da artıracağına əmin olduğunu bildirdi:** "Ordumuzun döyüş qabiliyyətini, peşəkarlığını, təcrübəsini artıran hər bir təlimin gələcəkdə Qarabağ məsələsinin həllində müsbət təsiri olacaq. Bu təlimlər ona hesablanıb ki, əmr olunan zaman Azərbaycan ordusu öz ərazi bütövlüyünü, suverenliyini təmin etsin. Biz təlimləri təlim xatirinə keçirmirik. Təlimlərdə məqsəd tapşırıqların praktiki şəkildə həyata keçirilməsidir. Azərbaycanla Türkiyənin birgə hərbi təlimləri sırf ərazi bütövlüyümüzün təmin edilməsi ilə bağlı hazırlıqdır. Buna nə ermənilərin, nə rusların, nə də ATƏT-in şübhəsi olmamalıdır. Eyni zamanda kimsənin haqqı çatmır ki, buna görə Azərbaycanı nədəsə ittiham etsin. Ermənilərin hay-küyü isə tamamilə gülüncdür. O qədər həyasızlaşıblar ki, az qalırlar desinlər Azərbaycan öz ərazisində hərbi təlim keçirən zaman Ermənistandan icazə almalıdır. Azərbaycan nə ermənilərə, nə də kənar hansısa başqa qüvvələrə əhəmiyyət vermir. Artıq 2 gündür təlimlər çox uğurla davam edir. Azərbaycanla Türkiyənin birgə hərbi təlimlərə hazırlıq prosesi bir müddət əvvəl başlayıb. Türkiyə Silahlı Qüvvələrinin zabitləri Azərbaycana gəldilər, yerlərlə tanış oldular, verilən tapşırığın icrası ilə bağlı vəziyyəti qiymətləndirdilər və öz bilik və bacarıqlarını Azərbaycanın əsgər və zabitləri ilə bölüşürlər. Azərbaycan ordusu işğal altındakı torpaqlarının azad olunması əməliyyatlarında bu hərbi təlimlərdən əldə etdikləri təcrübədən istifadə edəcək. Çünki bu təlimlər yüksək səviyyədə keçirilir. Bu təlimlərdə qazandığımız nəzəri və praktiki biliklərimizi Qarabağda işğalçı erməni hərbçilərinin üzərində sınaqdan keçirə biləcəyik. Ermənilər başa düşməlidir ki, biz təlimləri öz ərazimizdə ona görə keçirmirik ki, vəsait silinsin. Bu təlimlər çox bahalı təlimlərdir. Şəxsi heyətin saxlanılması, döyüş texnikasının yanacaq və sürtkü maddələri ilə təmin edilməsi, silah-sursatın hər biri çox böyük vəsait tələb edir. Düşünürəm ki, işğalçı ermənilər bundan çox ciddi nəticə çıxarmalıdırlar və Azərbaycan ərazilərini tərk etməlidirlər".

❑ **Etìbar SEYİDAĞA**

## Sərkisyan Xaçaturovu Təhlükəsizlik Şurasından çıxardı

**Ermənistan prezidenti Serj Sərkisyan Yuri Xaçaturovun Ermənistan Milli Təhlükəsizlik Şurasının katibi vəzifəsindən azad edilməsi ilə bağlı sərəncam imzalayıb.**



Virtualaz.org bildirir ki, məlumatı "Novosti Armeniya" yayıb. Xəbəri Ermənistan Prezident Aparatının İnformasiya və İctimaiyyətlə Əlaqələr şöbəsindən təsdiqləsələr də onun yerinə kimin təyin olunacağının hələlik məlum olmadığını bildiriblər.

Qeyd edək ki, Xaçaturov 2017-ci ilin may ayının 2-dən etibarən KTMT baş katibi vəzifəsinin icrasına başlayır.




## Yunanıstanın qaz şirkətinin SOCAR-a satılmayacağı dəqiqləşdi

**Yunanıstan hökumətinin kreditorlarla imzaladığı çərçivə sazişi qaz bazarının liberallaşdırılmasını və DESFA (Yunanıstanın qaz-nəqliyyat sisteminin operatoru - red.) şirkətinin səhmlərinin 66%-nin yalnız Avropa şirkətinə satışını nəzərdə tutur. "APA Economics" "RİA Novosti" agentliyinə istinadən xəbər verir ki, bu barədə Yunanıstanın Energetika Nazirliyinin yaydığı məlumatda deyilir.**

Kreditorlarla imzalanan çərçivə sazişi sentyabr ayınadək qaz bazarının liberallaşdırılmasına dair "yol xəritəsi"nin hazırlanmasını da nəzərdə tutur. "Qəbul olunan qərara əsasən, DESFA-nın 66%-nin ("Hellenic Petroleum" dövlət şirkətinə məxsus 35%, Dövlət Əmlakının İdarə olunması üzrə Fonda məxsus 31% satılacaq - red.) özəlləşdirilməsi planlaşdırılır. Saziş iki şərti özündə ehtiva edir. Birincisi, potensial investor yalnız Avropa şirkəti olmalı və yaxud üçüncü ölkələrin də daxil olduğu konsorsiumun iştirakçısı olmalıdır. İkincisi, özəlləşdirmədən sonra DESFA tam özəl bölgü modelinə əsaslanaraq fəaliyyət göstərməlidir", - deyə qurumun yaydığı məlumatda vurğulanıb.

Artıq HRADF özəlləşdirmə prosesi ilə bağlı məsləhətçinin seçiminə başlayıb. Prosesin ilin sonunadək başa çatması gözlənilir.

Qeyd edək ki, 2013-cü ilin iyun ayında DESFA-nın özəlləşdirilməsi ilə bağlı ilk tender keçirilib. Tenderin qalibi SOCAR elan olunub. Belə ki, SOCAR DESFA-nın səhmlərinin 66%-i üçün 400 mln. avro təklif edib. Lakin 2016-cı ilin noyabrında Avropa Komissiyası DESFA-nın nəzarət səhm paketinin SOCAR-a satılmasına razılıq verməyib. Qurum SOCAR-a payını 49%-dək azaltmağı təklif edib. Lakin rəsmi Afina səhm paketi üçün təklif olunan məbləği azaltmağa razı olmayıb.

# Bakıda "FETÖ işi" ilə bağlı ilk dəfə məhkəmə başladı

## Fuad Əhmədli ittihamları qəbul etmir

**Mayın 2-də Bakı Ağır Cinayətlər Məhkəməsində AXCP üzvü Fuad Əhmədlinin cinayət işi üzrə məhkəmə iclası keçirilib. Virtualaz.org saytının xəbərinə görə, hakim Fikrət Qəribovun sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib. İttihama münasibət bildirən Fuad Əhmədli özünü təqsirli bilməyib.**

Təqsirləndirilən F.Əhmədlinin vəkili Əsabəli Mustafayev vəsatətlə çıxış edib. O, məhkəmə proseslərinin audi-videoçəkilişlə aparılması, mötəbər olmayan sənədlərin sübutlar siyahısından çıxarılması, "Azərfon" MMC-nin icraçı direktoru Ken Maklenin məhkəməyə əlavə şahid kimi çağırılması barədə vəsatət verib. Məhkəmə çəkiliş aparılması ilə bağlı vəsatəti təmin etməyib, digərlərini isə baxılmamış saxlayıb.

Bundan sonra məhkəmədə zərərçəkmiş şəxs qismində Məhəmməd Quliyev ifadə verib.

**O ifadəsində təqsirləndirilən şəxsi deyil, onun əmisi oğlu Əliağanı tanıdığını, onun dostu Elşənin restoranında aşpaz işlədiyini göstərib:** "Maaşla bağlı



problemim yaranmışdı, istirahət günüm olduğundan işdən çıxıb Qəbələyə getmişdim, telefonu da söndürmüşdüm. Sonradan eşitdim ki, Əliağa əmisi oğlunun (Fuad Əhmədlini nəzərdə tutur-red.) vasitəsilə yerimi müəyyən edib. Axtarışa verilməyimdən çox pis olmuşdum. Niyə mən? Mən cinayət törətməmişdim, niyə axtarışa veriblər? Bu hadisə mənə çox pis təsir etmişdi".

**Zərərçəkmiş ifadəsində təqsirləndirilən şəxsdən şikayəti olmadığını deyib. Fuad Əhmədli isə zərərçəkmiş Məhəmməd Quliyevlə bağlı əmisi oğluna dəqiq məlumat vermədiyini məhkəmənin diqqətinə çatdırıb:** "Əmim oğlu Əliağa mesaj yazdı, bildirdi ki, bu şəxsin yerini ona deyim. Əliağanın əl çəkməyəcəyini bildiyimdən heç bir araşdırma aparmadan özümdən ona mesaj yazdım ki, ya ucqar yerdədi, ya da ölkədən kənardadı".

**Zərərçəkmiş Samir Xəlilov ifadəsində onlayn satışla məşğul olduğunu, ötən ilin iyun ayında onun telefonundan Taleh adlı şəxsə zəng olunduğunu deyib:** "Təsadüfən səhv düşmüşdüm. Bir xanım cavab verdi. Zəng vurduğum şəxsdən üzr istədim. Bundan sonra axtarışa verildiyimi eşitdim. Fuad Əhmədli mənim şəxsi işimlə bağlı məlumatları həmin qızın nişanlısına veribmiş. Yaranmış vəziyyət mənə çox pis təsir etmişdi".

Məhkəmə prosesi mayın 11-də davam edəcək.

Fuad Əhmədli 2016-cı il avqustun 18-də saxlanılıb. Dövlət Təhlükəsizlik Xidməti və Baş Prokurorluq bildirib ki, Fuad Əhmədli "Azərfon" MMC-də çalışdığı müddətdə abonentlərin şəxsi məlumatlarını üçüncü şəxsə ötürüb. Həmçinin bildirilib ki, Fuad Əhmədlinin mənzilində axtarış zamanı türkiyəli din xadimi Fətullah Gülənin çıxışlarının olduğu kitablar, CD-disklər tapılıb.

Fuad Əhmədli Cinayət Məcəlləsinin 302 (əməliyyat-axtarış fəaliyyəti üzrə qanunvericiliyi pozma) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham edilir.

# Gündəm

YENİ MÜSAVAT
N 93 (6707) 3 may 2017

# "Daxili və xarici dairələrin təxribatlarına baxmayaraq..."

## Əli Həsənov: "İctimai-siyasi transformasiyanın yeni mərhələsi başlayıb"

**"Anti-Azərbaycan mövqe tutan daxili və xarici dairələrin təxribatlarına baxmayaraq, Heydər Əliyevin respublikada ictimai-siyasi sabitliyi bərpa etməsi demokratik islahatların aparılması üçün əlverişli şərait yaratdı ki, bu, həm müstəqil dövlət quruculuğu proseslərinin sürətlə getməsində, həm də yeni iqtisadi-siyasi sistemin formalaşmasında mühüm rol oynadı".**



Bunu Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, hakim Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin üzvü Əli Həsənov "Azərbaycan" qəzetində dərc olunan məqaləsində qeyd edib.

**O bildirib ki, Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk illərdə milli birliyə qarşı yönəlmiş siyasi təhdidlər respublikada daxili sabitliyin, ictimai-siyasi və sosial-etnik təhlükəsizliyin təmin olunmasını, vətəndaş həmrəyliyinin yaradılması və digər ciddi məsələlərin həllini tələb edib:** "Buna görə də siyasi islahatlar aparılarkən milli təhlükəsizlik sisteminin mühüm tərkib hissələrindən biri olan ictimai-siyasi, sosial-etnik təhlükəsizliyin təmin edilməsi, cəmiyyətdəki köklü dəyişikliklərin xalqımızın maraqlarına təsirinin öyrənilməsi və nəzərə alınması vacib amillərdən biri oldu".

**Ə.Həsənov vurğulayıb ki, Azərbaycanda ictimai-siyasi sabitliyin, qanunçuluğun və vətəndaş birliyinin təmin olunması siyasi islahatların əsas hədəflərindən birinə çevrildi ki, bunun da nəticəsində respublikada hökm sürən xaos və dağıdıcı qüvvələrin cinayətkar fəaliyyəti aradan qaldırıldı, dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən quruculuq işləri vüsət aldı:** "Heydər Əliyevin xalqı səfərbər edərək öz arxasınca apara bilən lider olması ilə yanaşı, müstəqil Azərbaycan dövlətinin qurucusu kimi yaradıcı şəxsiyyət keyfiyyətləri yenidən bariz şəkildə təcəssüm olundu. Ümummilli lider mürəkkəb xarici-siyasi vəziyyətdə, yeni dünya nizamının tələblərini və geosiyasi reallıqları nəzərə almaqla Azərbaycan dövlətinin milli inkişaf strategiyasını müəyyənləşdirdi və elmi-siyasi, tarixi cəhətdən əsaslandırdı".

**Prezidentin köməkçisi qeyd edib ki, siyasi islahatlar cəmiyyətdə konstruktiv əməkdaşlıq və vətəndaş həmrəyliyi prinsipinin özünə mühüm yer tutmasını şərtləndirmişdir ki, bu da demokratik siyasi sistemi səciyyələndirən əsas cəhətlərdən biridir:** "Ümummilli lider hər kəsin müstəqil mövqeyini, fərqli düşünmək hüququnu qəbul edir, hətta opponentlərin əsassız tənqidlərinə hədsiz dözümlülük göstərirdi. Heydər Əliyev demokratiyaya dərk edilmiş nizam-intizam, yaradıcı proses kimi baxır və bu anlayışdan sui-istifadə edərək cəmiyyətdə xaos yaratmağa cəhd edən siyasi avantüristlərə qarşı barışmaz mövqe tuturdu. Hüquqi dövlətin və vətəndaş cəmiyyətinin inkişafı naminə ictimai-siyasi qüvvələrin birliyinə nail olmaq və milli mənafelərdən irəli gələrək şəxsi, qrup maraqlarını arxa plana keçirib qarşıdurmalara yol verməmək siyasi islahatlar zamanı diqqət mərkəzində dayanmışdır. Ölkənin əksər siyasi qüvvələri arasında konstruktiv əməkdaşlığın yaradılması müstəqil dövlət quruculuğu proseslərini sürətləndirən əsas amillərdən biri olub.

Ümummilli liderin adı ilə bağlı olan siyasi islahatlar strategiyasının hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilib uğurla həyata keçirilməsi Azərbaycanın müstəqil dövlət kimi mütərəqqi inkişafında və dünya birliyində böyük nüfuz qazanmasında mühüm rol oynayır.

Ötən illərin təcrübəsi göstərir ki, siyasi islahatların ardıcıl və sistemli şəkildə aparılması ictimai həyatın bütün sahələrinin ahəngdar inkişafı, milli maraqlardan irəli gələn məsələlərin çevik və lazımi səviyyədə həllini tapması üçün əlverişli imkanlar yaratmışdır. Bütün bunların nəticəsində Azərbaycan keçid dövrünü başa vuraraq, ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-ideoloji transformasiyasının yeni mərhələsinə daxil olmuşdur".



# Prezident və xanımı BGF-nin rəhbərləri ilə görüşdülər

**Prezidenti İlham Əliyev və birinci vitse-prezident, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva Beynəlxalq Gimnastika Federasiyasının (BGF) prezidenti Morinari Vatanabeni və qurumun baş katibi Andre Qaysbuxleri qəbul ediblər.**

Virtualaz.org-un məlumatına görə, dövlət başçısı Bakıda bədii gimnastika üzrə dünya kuboku yarışlarının çox uğurla keçirildiyini vurğulayıb və qeyd edib ki, bundan əvvəl də Azərbaycanda gimnastika üzrə dünya və Avropa çempionatları və digər mötəbər tədbirlər yüksək səviyyədə təşkil olunub.

Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Morinari Vatanabe Bakıda bədii gimnastika üzrə dünya kuboku yarışlarının uğurla keçirilməsi və ümumilikdə idmanın gimnastika növünə verilən dəstəyə görə prezidentə və Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Qonaqlar Azərbaycanda gimnastika sahəsində görülən işləri dünyada idmanın gimnastika növünün inkişafına böyük töhfə kimi dəyərləndiriblər.

Birinci xanım, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva ölkəmizdə Gimnastika Federasiyasına rəhbərlik etməsindən və xüsusilə bu sahədə əldə olunan uğurlardan qürur hissi keçirdiyini bildirib və qeyd edib ki, Azərbaycanda gimnastikanın inkişafının əsası qoyulan vaxt bu idman növü bir o qədər də populyar deyildi. İndi isə gimnastikaya böyük maraq göstərilir, xüsusilə xeyli sayda gənc qızlar bu idman növü ilə məşğul olmaq və yarışlarda iştirak etmək arzusundadırlar: "Bu, çox böyük nailiyyətdir və biz bununla fəxr edirik".

# Avropa Birliyi-Azərbaycan danışıqları: saziş nə vaxt imzalanacaq?

## AB ilk dəfə olaraq Dünya Ticarət Təşkilatına daxil olmayan bir ölkə ilə hərtərəfli razılaşma imzalayacaq

**"Düşünürəm ki, Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə danışıqların növbəti mərhələsi tezliklə baş tutacaq". "Trend"in məlumatına görə, bunu jurnalistlərə Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Malena Mard deyib.**



M.Mard ötən həftə Aİ Xarici Əməliyyatlar Xidmətinin əməkdaşı Lyuk Devinlə Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev arasında yeni saziş üzrə intensiv danışıqların aparıldığını söyləyib: "Düşünürəm ki, tezliklə danışıqların növbəti mərhələsi baş tutacaq. Bizim məqsədimiz birlikdə intensiv şəkildə işləməkdir. Xüsusilə bu ilin noyabrında keçiriləcək "Şərq tərəfdaşlığı" sammiti öncəsi biz böyük səylə çalışacağıq".

Xatırladaq ki, prezident İlham Əliyev aprelin 19-da Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Belçikaya səfərini məmnunluqla xatırlayan prezident İlham Əliyev bu səfər çərçivəsində səmərəli görüşlər keçirildiyini və müzakirələr aparıldığını qeyd edib. Səfər zamanı Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişə start verildiyini deyən dövlətimizin başçısı həmin sazişin əməkdaşlığımızın daha da inkişaf etdirilməsində mühüm addım olduğunu vurğuladı, bu istiqamətdə işlərin fəal şəkildə davam etdiriləcəyinə və vaxtında yekunlaşdırılacağına ümidvar olduğunu bildirib. Tərəflər arasında sazişlə bağlı ümumi anlaşmanın mövcud olduğunu qeyd edən prezident şlərin yekunlaşmasının danışıqlar prosesinin gedişindən asılı olacağını vurğulayıb. Azərbaycanla Avropa İttifaqı arasında uzun illərdir yaxşı tərəfdaşlıq əlaqələrinin qurulduğunu deyən dövlətimizin başçısı əməkdaşlığımızın əsas istiqamətlərinin artıq müəyyənləşdirildiyini, Avropa İttifaqının bir sıra ölkələri ilə sazişlər və memorandumlar imzalanması təcrübəsinin olduğunu qeyd edib.

Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə danışıqlar ilkin olaraq siyasi məsələləri əhatə edir. Saziş, siyasi dialoq, insan hüquqları, ticarət, investisiya, iqtisadi, qanunverici, mədəni və digər əməkdaşlıq sahələrində genişmiqyaslı əməkdaşlığı nəzərdə tutur.

Azərbaycan Aİ ilə siyasi bərabərlik əsasında bir saziş istəyir. Bu o deməkdir ki, Azərbaycan Aİ-nin siyasi assosiasiya və iqtisadi inteqrasiyası təkliflərindən özü istədiyi həcmdə faydalana biləcək.

"BBC-Azərbaycan" yazır ki, Azərbaycanla bu tip sazişi hazırlamaq Aİ üçün də asan deyil. Çünki Aİ, ilk dəfə olaraq, Dünya Ticarət Təşkilatına (WTO) daxil olmayan bir ölkə ilə iqtisadi razılaşmaya gəlməlidir.

Bunun üçün Azərbaycan WTO-ya daxil olanadək WTO-dəki mövcud mexanizmləri əvəzləyəcək və hər iki tərəfə faydalı yollar tapılmalıdır.

Bundan başqa, regional stabillik, Qarabağ məsələsi, iqtisadi-ticari danışıqlara dair ortaq dil tapmaq da uzun müzakirələrə səbəb ola bilər.

Bildirilir ki, bu saziş Aİ-nin "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində ölkələrlə bağladığı sazişlərə çox bənzəyir, bura siyasi, iqtisadi-ticari, enerji regional təhlükəsizlik və Dağlıq Qarabağ istiqamətlərinin daxil ediləcəyi şübhəsizdir. Lakin hələlik sənədə daxil olacaq maddələrin dəqiq sayı naməlumdur. Siyasi əməkdaşlıq daha önəmli olacaq. Bundan başqa, iqtisadi və enerji sahəsi də əhəmiyyətli hesab edilir.

Yeni saziş Azərbaycan məhsullarının Avropa İttifaqının bazarlarına çıxışının yaxşılaşması məqsədilə Azərbaycan qanunvericiliyinin və prosedurlarının Aİ-nin ən mühüm beynəlxalq ticarət norma və standartlarına uyğunlaşdırılmasını nəzərdə tutur.

❑ **ORXAN**

YENİ MÜSAVAT
N 93 (6707) 3 may 2017

**Azərbaycanın insan haqları üzrə müvəkkili - ombudsman Elmira Süleymanovanın səlahiyyət müddəti martın 5-dən başa çatıb. İndiyə qədər yeni ombudsman seçilmədiyi üçün iki aydır Elmira Süleymanova ombudsman vəzifəsini müvəqqəti icra edir. Azərbaycan qanunvericiliyinə görə, ombudsmanın namizədliyi prezident tərəfindən parlamentə təqdim olunur və millət vəkilləri tərəfindən təsdiqlənir.**

# "Ombudsman olmaq niyyətim yoxdur"

## Novella Cəfəroğlu: "Yeni ombudsman gənc, hüquq təhsilli, hüquq müdafiəçisi kimi ciddi təcrübəsi olan şəxs olmalıdır"

Azərbaycan ombudsman institutu 15 il bundan qabaq yaradılıb. Bu təsisatın yaradılması Avropa Şurasının o zaman qoyduğu əsas tələblərdən biri idi.

Bu müddət ərzində Azərbaycan ombudsmanı ölkədə insan haqları ilə bağlı bir çox məsələlərin həllində iştirak edib və bu institutu ölkə üçün vacibliyi təsdiqini tapıb.

5 mart 2002-ci ildə Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi haqqında Fərman imzalayıb. Azərbaycan Respublikasının ilk Ombudsmanı 2002-ci il 2 iyul tarixində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikasının Prezidentinin təqdim etdiyi üç namizəd arasından 111 səslə Elmira Süleymanova (112 səsdən) seçilib.

2 iyul 2002-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul edilib.

Ombudsman təsisatının yaradılması ilə bağlı qanunvericilikdə öz əksini tapmış bu yeniliklər 2002-ci il avqustun 24-də keçirilən ümumxalq səsverməsi (referendum) yolu ilə edilmiş dəyişikliklər nəticəsində ölkə konstitusiyasında təsbit edildi.

Ombudsmanın seçilməsindən üç ay sonra, 2002-ci il oktyabrın 28-də artıq Ombudsman Aparatında ərizəçilərin qəbuluna və şikayətlərin araşdırılmasına başlanılıb.

Ombudsman-İsveç mənşəli sözdür. Mənası agent və ya sədr deməkdir. Parlament tərəfindən insan hüquq və azadlıqlarının müdafiəçisi kimi səlahiyyət verilən, dövlət funksiyalarının daşıyıcısı olan vəzifəli şəxslərin üzərində birbaşa parlament nəzarətini həyata keçirən, lakin onlar tərəfindən qəbul edilmiş qərarları dəyişdirmək hüququ olmayan, etibarlı və layiqli vəzifəli şəxs başa düşülür.



Ombudsman şikayətləri qəbul edən rəsmi şəxs verilən addır. Bütün Avropa (həmçinin digər demokratik ölkələrdə) ölkələrində bu şəxs əhalinin dövlətin nəzarətində olan sahələrdə şikayətinə baxan bir şəxs kimi başa düşülür. Ombudsman Avropa Birliyi ölkələrində yaşayan şəxslərin, qurumların və şirkətlərin haqlarını hər hansı bir pis idarəetmə tətbiq olunması qarşısında qorumaqla vəzifələndirilmiş yoxlama qurumu və şikayət müraciəti olunan yer, yəni məqamdır.

Ombudsman təsisatı nə qanunverici, nə icra, nə də məhkəmə hakimiyyətinə aid olmayan, ilkin mahiyyətinə görə dövlətin ali təsisatlarına aid orqandır. Ombudsmanın birinci səciyyəvi əlaməti onun tam müstəqilliyidir. Dünya təcrübəsinə görə, bu orqan parlament tərəfindən təsis olunur və onun qarşısında hesabat verir.

Ombudsman funksiyalarını vətəndaşların tələbləri və şikayətləri üzrə öz şəxsi təşəbbüsü ilə həyata keçirir. Ombudsmanın hüquq statusu konstitusiya və digər hüququ aktlarla müəyyən edilir.

Ombudsman şikayət edilən qurumla əlaqə saxlayır, məlumat istəyir və şikayətin aradan qaldırılması üçün üç ay müddət verir. Haqqında şikayət edilən qurum ombudsmana məlumat verməyə borcludur.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu "Yeni Müsavat"a bildirdi ki, yeni ombudsman gənc, yüksək səviyyədə biliyə malik hüquq təhsilli, hüquq müdafiəçisi kimi ciddi təcrübəsi olan şəxs olmalıdır. Belə olması ölkəmizin, hər bir vətəndaşın xeyrinə ola bilər:** "Siz şəxsən mənim hüquq müdafiəçisi kimi ombudsman seçilmək iddiamın olub-olmadığı ilə bağlı sual verdiniz. Bu suala cavabım belədir ki, iddiam yoxdur. Çünki mənim yaşım elədir ki, ombudsman kimi çox məsuliyyətli bir işi öhdəmə götürməyi məqsədəuyğun saymaram. Dediyim kimi, gənc birisi ombudsman olmalıdır. Biz bu yaşımızda ancaq tövsiyə verə bilərik. İnsan haqlarını yaxşı bilən, hüquq təhsilli gənclərimiz kifayət qədərdir. Birinin ombudsman seçilməsi Azərbaycanın xeyrinə olar".

**Novella Cəfəroğlu onu da vurğuladı ki, ombudsmanın fəlsəfəsi onun tərəfsiz olmasıdır. Ona görə də yeni ombudsman da mütləq tərəfsiz olmalıdır. Ombudsman tərəfli oldusa, onun ombudsmanlığından danışmağa dəyməz:** "Sözün düzü mən indiyə qədər ombudsman olan Elmira Süleymanovadan razı idim. Çünki biz hüquq müdafiəçiləri nə zaman ondan hüququ pozulan insanlarla bağlı xahiş edirdik, nə zaman bu barədə məlumatlar verirdik, dərhal maraqlanırdı, köməklik göstərirdi, həbsxanalara gedirdi. Amma mən bir daha sözümün üstündə dayanaraq deyirəm ki, yeni ombudsman cavan kadr olmalıdır. Azərbaycan hüquq müdafiəçiləri sırasında ombudsman olmağa cavab verən adamlar var. Mən onların adlarını çəkmək istəmirəm. Çünki ola bilər birinin adını çəkib başqa birilərini unuda bilərəm, inciyərlər. Biz necə şəxsi ombudsman olmasını istədiyimizi söyləyirik, əsas məsələ odur hökumət biz istədiyimiz adamı seçsin".

Qanuna görə, insan hüquqları üzrə müvəkkil Azərbaycan prezidentinin təqdimatı əsasında 3 namizəd arasından Milli Məclis tərəfindən seçilir. Milli Məclis müvəkkil seçməsi ilə bağlı qərar qəbul edilmədikdə, prezident 15 gün müddətinə digər 3 şəxsin namizədliyini parlamentə təqdim edir. Əgər bu dəfə də seçilmirsə, yenidən digər 3 şəxsin namizədliyi təsdiq edilə bilər. Azərbaycanda isə belə hal yaşanmayıb. İlk dəfə prezidentin təqdim etdiyi namizədlər siyahısından Elmira Süleymanova seçilib. Həmçinin qanuna görə, yaşı 30-dan aşağı olmayan, ali təhsilli, insan hüquqları sahəsində təcrübəyə, yüksək əxlaqi keyfiyyətlərə malik olan Azərbaycan Respublikasının vətəndaşı ombudsman vəzifəsinə seçilə bilər. İkili vətəndaşlığı olan, başqa dövlət qarşısında öhdəliyi olan, qanunvericilik icra və məhkəmə hakimiyyəti sistemində qulluq edən (yaradıcılıq fəaliyyəti istisna olmaqla) ödənişli fəaliyyətlə məşğul olan, xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxs müvəkkil ola bilməz. Həmçinin müvəkkil heç bir siyasi partiyanın üzvü ola bilməz. Əgər sadalanan vəzifələr varsa, ombudsman seçildiyi təqdirdə həmin vəzifələrdən istefa verməlidir.

❑ **Etibar SEYİDAĞA**

# Marketdən rüşvət alarkən tutulan jurnalistdir, yoxsa marketoloq...

## Aydın Quliyev: "Bu tipli şəxslər haqqında "jurnalist həbs edildi" demək olmaz"



**Bir neçə gün öncə Daxili İşlər Nazirliyi tanınmış marketoloqun həbsi ilə bağlı məlumat yaymışdı. Məlumatda deyilirdi ki, sosial şəbəkələrdə qeydiyyatdan keçməklə müxtəlif iş adamlarını barələrində guya rüsvayedici məlumatlar yayacaqları, sahib olduqları şirkətləri ictimaiyyət arasında nüfuzdan salacaqları ilə hədələyərək onlardan qanunsuz olaraq pul tələb edən şəxslərə qarşı daxili işlər orqanları tərəfindən əməliyyat-axtarış tədbiri həyata keçirilib.**

Belə ki, Baş Mütəşəkkil Cinayətkarlığa Mübarizə İdarəsinə müraciət edən məhdud məsuliyyətli cəmiyyətlərdən birinin rəhbərliyi sosial şəbəkələrdə Tural adlı vətəndaşın onların fəaliyyəti barədə təhqiredici, həqiqətə uyğun olmayan böhtan xarakterli məlumatlar paylaşdığını və bu tipli məlumatların təkrar yayılmaması üçün həmin şəxsin külli miqdarda pul tələb etdiyi barədə məlumat verib: "Baş İdarə əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində hədə-qorxu ilə pul tələb etməkdə şübhəli bilinən həmin şəxs - Bakı şəhər sakini Tural Abdullayev qeyd edilən cəmiyyətin əməkdaşından 3500 manat pul alan zaman saxlanılıb. Faktla bağlı Baş İdarənin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, zəruri istintaq hərəkətləri, eləcə də əməliyyat-axtarış tədbirləri davam etdirilir".

T.Abdullayevin həbs edilməsindən sonra onu bəziləri jurnalist kimi təqdim ediblər. Bu da media camiyəsində heç də yaxşı qarşılanmadı. Musavat.com saytı məsələni araşdırıb və məlum olub ki, onunla bağlı polisə müraciət edən "Araz" supermarketlər şəbəkəsinin rəhbərliyidir. Onların arasında bir müddət imiş ki, mübahisə varmış. Tural Abdullayev "Araz" marketlər şəbəkəsi ilə bağlı bir neçə dəfə tənqidi və təhqiredici statuslar paylaşıb, özünün şəxsi saytında məqalələr dərc edib.

Onlar arasında münaqişənin yaşanmasının əsas səbəblərdən biri də Tural Abdullayevin "Araz" marketlər şəbəkəsini plagiatlıqda ittiham etməsi olub. Bir neçə gün əvvəl İngiltərədən qayıdandan sonra T.Abdullayevin tutulması ilə bağlı əməliyyat keçirilib.

Tural Abdullayev kimdir?

T.Abdullayev bu günə qədər 10-dan çox tanınmış şirkətdə çalışıb. Amma onu hər kəslə tanış edən, reklam edib, tanıdan ilk olaraq telekanallar olub. Telekanallar Tural Abdullayevi marketoloq, ekspert kimi təqdim ediblər. Son 1 il ərzində T.Abdullayev azı 15 dəfə marketoloq kimi rəy verib, verilişlərin qonağı olub.

Özünü hər zaman xidmət və pərakəndə sektoru üzrə ekspert, marketoloq kimi tanıdan Tural Abdullayev əvvəlcə "Tərəzi" layihəsi ilə səs-küy salmışdı. Müxtəlif marketlərə müştəri kimi daxil olub, onlara "Xidmət", "Keyfiyyət", "Rahatlıq", "Təmizlik", "Kampaniyalar" və "Çeşid" üzrə qiymət verirdi. Bu videolar onun ən səs salan layihəsi idi. Bir neçə videodan sonra bu layihəni dəyişməli olub. Eyni adla çəkdiyi videolarda artıq marketlərə getmədən, eyni ərzaqları alıb, çəkisini, dadını və qiymətini müqayisə etməyə başlamışdı.

T.Abdullayev supermarketinq.net saytının da sahibidir. Sayta göz gəzdirdikdə yetərincə məqalə, araşdırma və reklamlar görmək olur. Müxtəlif market və şirkətlərin bannerləri saytda görünür. Bu da təbii ki, ödənişsiz deyil. Həbsi zamanı sübut kimi təqdim edilən videoda T.Abdullayevin pul aldığı görünür. Onun yaxınları bu görüntüdə T.Abdullayevin rüşvət yox, reklam üçün ödəniş aldığını və onun şərləndiyini iddia edirlər.

Supermarketinq.net saytında marketlər haqqında məqalələrə də göz gəzdirdik. Yazıları oxuyub, müqayisələri incələdik. T.Abdullayevin ən çox tənqid etdiyi, hətta təhqir etdiyi deyilən "Araz" market haqqında saytda vaxtilə yaymış olduğu müsbət yazılar da gördük. Hətta bu yazılar daha çox reklam xarakterli dir.

T.Abdullayevin həbs edilməsi xəbərlərinin sonunda bütün saytlar, "Qeyd edək ki, Tural Abdullayev facebook səhifəsində "Araz" marketlər şəbəkəsini təhqir və şantaj etmişdi" - deyə əlavə edirlər. Öyrəndik ki, T.Abdullayev bunu vaxtilə özünün şəxsi profilində yazıb və sonradan gizlədib. Həmin statusları da tapıb baxdıq: Lakin təhqiramiz ifadələrə görə onu oxuculara təqdim edə bilmirik.

O, həmçinin supermarketinq.net saytından "Araz" marketlə bağlı yazdığı bütün tənqidi yazıları silib. "Google" axtarış sistemində həmin yazıları tapmaq mümkün olsa da, saytdan yazı silindiyi üçün onları oxumaq olmur. "Araz" marketlə bağlı müsbət xarakterli məqalələr bu ilin yanvar, fevral aylarına aiddir və heç bir tənqidi yazı yoxdur. Belə bir vəziyyət istər-istəməz şübhə doğurur.

Tural Abdullayevin həbsindən sonra onu "reket jurnalist" kimi adlandıranlar da oldu. Bu səbəbdən Mətbuat Şurası İdarə Heyətinin üzvü və "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyevlə əlaqə saxladıq.

**A.Quliyev T.Abdullayevin jurnalistikaya heç bir aidiyyəti olmadığını, onun sırf cinayət əməlinə görə həbs edildiyini dedi:** "Belə şəxslərin jurnalist kimi qələmə verilməsi, müdafiə edilməsi çox təəccüblüdür. Kiminsə yazı yazması onun jurnalist olması anlamına gəlmir. Əgər hansısa şəxs kimlərisə şantaj edib, onlardan pul alırsa və bu fakta görə yaxalanırsa, deməli, həmin adam cinayət əməli törədib. Buna görə də cavab verməlidir. Bu tipli şəxslər haqqında "jurnalist həbs edildi" demək olmaz. Həmin adam yazılarına görə yox, cinayət əməlinə görə həbs edilib. Burada heç cür müdafiə forması ola bilməz".

❑ **Məhəmməd TÜRKMƏN**

YENİ MÜSAVAT
N 93 (6707) 3 may 2017



# "Deputatların mandatını almaq" qanunu ilk oxunuşdan keçdi

## "Milli Məclis deputatının etik davranış qaydaları haqqında" qanun layihəsi parlamentdə gərgin müzakirələrə səbəb oldu

## Parlamentdən Türkiyəyə tam dəstək: "AŞ PA-nın qərarı qərəzlidir"

**Mayın 2-də Milli Məclisin növbəti plenar iclasında spiker Oqtay Əsədov öncə AŞ PA-nın yaz sessiyasında Türkiyəyə qarşı ədalətsiz monitorinq qərarı qəbul etdiyini dedi və buna etirazını bildirdi.**

Daha sonra çıxış edən Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri **Səməd Seyidov** dedi ki, Türkiyə nümayəndə heyətinin bütün üzvləri, iqtidarlı-müxalifətli hər kəs bu monitorinqin əleyhinə idi, amma çıxışlar nəzərə almadı və AŞ PA Türkiyə ilə bağlı yenidən monitorinq qərarı verdi".

**Deputat Azay Quliyev də AŞ PA-nın qərarına qarşı çıxdı:** "Biz keçən ilin çevriliş cəhdi zamanı gördük ki, Avropa qurumları Türkiyəyə qarşı törədilən cinayətə qarşı adekvat addım atmadılar. 265 nəfər şəhid oldu, minlərlə adam yaralandı, parlament bombalandı, amma bu qədər rəzalətə Avropa Şurası, Avropa Parlamenti laqeyd yanaşdı. 15 iyulda edilmiş uğursuz dövlət çevrilişi cəhdinin qisasını Türkiyədən alırlar. AŞ PA öz qərarına yenidən baxmalıdır".

**Deputat Qənirə Paşayeva da AŞ PA-nın qərarına etiraz etdi:** "Bu, bir daha göstərir ki, AŞ PA-da müsəlman ölkələrinə qarşı ikili standartlar mövcuddur. Avropa Şurasının üzvü olan Ermənistan illərdir Azərbaycanın torpaqlarını işğalda saxlayır. Eyni zamanda Dilqəm Əsgərov və Şahbaz Quliyevin girovluqda saxlanılmasına görə AŞ PA Ermənistana heç bir təzyiq göstərmir. Türkiyəyə qarşı qərarda biz bu ikili standartların bir daha şahidi olduq".

**Deputat Zahid Oruc dedi ki, AŞ PA-dakı qərar qardaş ölkənin müstəqil siyasətini əngəlləmək niyyətindən irəli gəlir:** "Avropa Şurası artıq başqa qüvvələrin əlində alətə çevrilib".

**Deputat Qüdrət Həsənquliyev bu gün Türkiyənin haqsız hücumlara məruz qaldığını deyib AŞ PA-ya etiraz etdi:** "Təkcə Almaniyanın büdcəsi Türkiyənin büdcəsindən dəfələrlə çoxdur. Amma Türkiyə qapıların qaçqınların üzünə acid və onlara sahib çıxdı. Özü də İraqdakı, Suriyadakı o vəziyyəti Türkiyə yaratmayıb, Avropa yaradıb. Biz Milli Məclis olaraq Türkiyə ilə bağlı qəbul olunmuş qərarı pisləməliyik. Mən o fikirdə deyiləm ki, Türkiyədə hər şey qaydasındadır. Amma Türkiyə nümayəndə heyəti də vəziyyəti müzakirə etməyə hazır olduqlarını bəyan edib. Ancaq buna baxmayaraq, Türkiyəyə qarşı belə bir qərar qəbul olunub".

**Deputat Çingiz Qənizadə dedi ki, Türkiyəyə qaşı qəbul olunan qərar hüquq müdafiəçilərini də narahat edir:** "Bu, qeyri-obyektiv və subyektiv qərardır və biz ona "yox" deyirik. Belə bir qərar Türkiyədəki uğurlu islahatları gözü götürməyənlərin fəaliyyətinin nəticəsidir. Niderlandda insanlara qaşı törədilən zorakılıqlara qarşı Avropa Şurası Türkiyəyə qarşı "ikinci cəbhə"ni açıb. Təbii ki, onlar güclü iqtisadiyyatı olan bir müsəlman dövlətini - güclü Türkiyəni görmək istəmirlər".

**Deputat Siyavuş Novruzov dedi ki, biz dəfələrlə Türkiyəyə qarşı ədalətsiz mövqeyin şahidi olmuşuq, bu da növbəti ədalətsizlikdir:** "Hətta Türkiyə müxalifəti də demir ki, referendum fövqəladə vəziyyət rejimi altında keçirilib. Avropa Roma papasından artıq katolik olmaq istəyir. Seçkilərdə 76-80 faiz olur, deyirlər, "çoxdur, qeyri-demokratikdir", az olur, yenə də başqa söz deyirlər. Krılovun məşhur təmsili xatırlanır, qurd quzuya deyir "suyu bulandırdın". Ədalətli, demokratik səsvermə keçirilib, sən nə ədalət dərsi keçirsən? Avropada bir terror aktı baş verəndə qışqırıqları dünyanı başına götürür. Bir qəzet redaksiyasını partlatmışdılar, hələ bilinmir özləri partlatmışdı, ya başqası. Türkiyəyə qarşı bu qədər terror oldu, amma NATO öz prinsiplərinə sadiqlik nümayiş etdirib Türkiyəni müdafiə etmədi".

**Deputat Fəzail İbrahimli bildirdi ki, Avropanın məqsədi Türkiyənin qəddini əyməkdir:** "Türkiyə əriməlidir, əyilməlidir, bunu istəyirlər. Nə vaxt ki, Türkiyəni bölmək, ondan nəsə qoparmaq istəyirlər, "genosid" yada düşür. Bu qərar Avropanın sifətini aydın ifadə edir. Bu qərar Türkiyənin tükünü də tərpədə bilməyəcək".

**Deputat Aydın Mirzəzadə də qərarı qərəzli, Avropa Şurasının öz prinsiplərinə zidd olduğunu söylədi:** "Azərbaycan bu məsələdə Türkiyənin yanındadır".

**"Mən ömrüm boyu "türkəm" demişəm. Türkün gücünü görən Avropa Şurası əlbəttə, belə qərəzli hərəkətlər edəcək".**

**Bu fikirləri isə xalq artisti Zeynəb Xanlarova Türkiyəyə qarşı AŞ PA-da qəbul olunan qərəzli qərara münasibət bildirərkən söylədi. Daha sonra Z.Xanlarova bunları bildirdi:** "Türkiyəyə qarşı belə bir hərəkət tək məni yox, bütün Azərbaycan xalqını qəzəbləndirir. Çox xahiş edirəm, Oqtay müəllim, bizim parlament adından etirazımızı bildirək! Bu gün Türkiyənin yanında olmalıyıq. Bütün Azərbaycan xalqı ayağa qalxmalıdır, nəinki parlament üzvləri! Bizim hansısa ağrılı yerimiz olanda birinci türk xalqı arxamızda dayanıb. Biz də Türkiyənin yanında olmalıyıq. Biz də Milli Məclis adından Avropa Şurasına bir məktub yazaq, etiraz edək!"

**Daha sonra gündəlikdəki məsələlərin müzakirəsinə keçildi. Sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli "Turizm haqqında" qanun layihəsi barədə məlumat verəndən sonra mədəniyyət və turizm naziri Əbülfəs Qarayev çıxış etdi. Bildirdi ki, bu gün turizm sənayesinin dünya iqtisadiyyatında payı 7, 6 trilyon ABŞ dolları təşkil edir:** "Bir turistə xidmət etmək üçün 9 nəfərdən 32 nəfərə qədər insanın əməyi tələb olunur. Azərbaycanda hazırda təsis olunmuş Turizm Şurası fəaliyyət göstərir. Onun tərkibində 18 dövlət qurumunun nümayəndəsi çalışır". **Nazir dedi ki, bu qanun layihəsinin qəbul edilməsi ilə turizmin çoxşaxəli inkişafı istiqamətində işlər görməliyik:** "Qeyd edim ki, son 3 ayda ölkəyə 25 faiz daha artıq turist gəlib. Son illərdə görülmüş işlərin nəticəsidir ki, vətəndaşları daha çox turizmə üstünlük verən 15 ölkədən Azərbaycana gəlmiş turistlərin sayı nəinki 25 faiz, 36 faiz artıb".

**"Halal hotel nədir? Bu, hansı terminologiyaya uyğundur? Deməli, qalanları haramdır, bu, halaldır? Yaxud haramdırsa, orda nələr baş verir? Bir vaxtlar kolbasalara "halal kolbasa" adı qoymuşdular, indi də hotellərə keçiblər".**

**Deputat Siyavuş Novruzov bu fikirləri "Turizm haqqında" Qanunun müzakirəsi zamanı söylədi. O qeyd etdi ki, dünyada hotellərə hansı tələb qoyulursa, bizdə də qoyulmalıdır.** "Ancaq mənzillərin hotellərə çevrilməsinə ciddi şəkildə nəzarət olmalıdır" - deyən S.Novruzov təhlükəsizlik məsələsinə də ciddi diqqət yetirilməsini zəruri saydı.

Qanun layihəsi ilk oxunuşda qəbul olundu.

**Milli Məclisin iclasında Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov Rusiya XİN-in sözçüsü Mariya Zaxarovanın Azərbaycana qarşı saygısız münasibətinə, ölkə jurnalistlərini aşağılamasına etirazını bildirdi.** "Son günlər ölkəmizin ictimai fikrində daha çox müzakirə edilən məsələ Rusiyanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarovanın davranışıdır. Onun azərbaycanlı jurnalistin sualına cavabı etik normaların, həmçinin vəzifə səlahiyyətlərinin kobud surətdə aşılmasıdır". Mən bu salondan ölkə jurnalistlərinin mövqeyini bir daha səsləndirirəm və hesab edirəm ki, məsələyə parlament səviyyəsində də sərt münasibət bildirilməlidir. Çünki xanım Zaxarovanın fikirlərində aşkar nəzərə çarpan təzyiq, təhdid və təhqir meylləri onun ümumən Dağlıq Qarabağ həqiqətlərinə biganəliyindən, məsələnin həssaslığına əhəmiyyətsiz yanaşmasından qaynaqlanır. Halbuki erməni əsirliyində saxlanılan Rusiya vətəndaşı Dilqəm Əsgərovun taleyi Azərbaycanı düşündürdüyü qədər Rusiyanı və bu ölkənin cəmiyyətini də düşündürməlidir" - Ə.Amaşov bildirdi. MŞ sədri daha sonra AŞ PA-nın Türkiyəyə qarşı qərarını da pisləyib və qardaş ölkəyə dəstəyini ifadə edib.

**İlk oxunuşda müzakirəyə çıxarılan "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" qanun layihəsi də, gözlənildiyi kimi, geniş müzakirələrə səbəb oldu. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxışında dedi ki, qanun layihəsi lakonikdir, cəmi 13 maddədən ibarətdir.** "Bu qanun layihəsini hazırlayarkən biz Avropa ölkələrinin qanunvericiliyini öyrənmişik. Qanunun qəbulu ilə Milli Məclisin İntizam komissiyasının səlahiyyətləri bir sıra hallarda genişləndirilir".

**Deputat Zahid Oruc deputat mandatından məhrumolma maddəsinə etiraz etdi:** "Əgər deputat mandatını itirəcəksə, bu, o deməkdir ki, biz məhkəmənin səlahiyyətlərini mənimsəmiş olacağıq. Nəzərə alaq ki, bizdə ikipalatalı parlament yoxdur. Biz məhkəmənin qərarı ilə səlahiyyətlərimizə başlayırıq, məhkəmənin qərarı ilə də səlahiyyətlərimizə xitam verilə bilər". Z.Oruc misal çəkdi: "Gürcüstanda on gün bundan əvvəl kimsə qələmlə başqasının başını zədələmişdi, ancaq kimsə onu tərbiyəsizlikdə günahlandırmadı. Bir sıra ölkələrdə qanun yoxdur, amma inkişaf yüksək səviyyədədir. İndoneziyada bununla bağlı qanun var, amma dünyada inkişaf səviyyəsinə görə 88-ci yerdədir. Etika təkcə davranış demək deyil, xalqın içinə getməkdir, mikrofonu boş qoymamaqdır və s." **Deputat parlament üzvünün etikasına görə cəza modelini hansısa zavod işçisinin cəzalandırılması ilə eyniləşdirilməsini düzgün saymadı:** "Bu, parlamentdə qorxaqlığa, özünüsenzuraya səbəb olacaq".

Spiker isə cavabında "Vallah, heç qorxağa oxşamırsan" - deyə, reaksiya verdi.

**Deputat Tahir Kərimli də mandatdan məhrum edilmə ilə maddədən narahatlığını ifadə etdi. Eyni zamanda deputatın sahibkarlıq fəaliyyəti ilə bağlı mandatdan məhrum edilməni düzgün saymadı:** "Bunun etikaya heç bir aidiyyəti yoxdur". T.Kərimli ardınca deputatın azad fəaliyyətinə imkan verən konstitusiya maddəsini də xatırlatdı və qanun layihəsindəki məhdudiyyətləri doğru saymadı: "Deputatın haqqı var bilsin ki, hansı etik qaydanı pozanda o, mandatdan məhrum edilə bilər".

**Deputat Fərəc Quliyev də etik qaydaların qanunla müəyyən olunmasını, özü də parlamentdə, "qəribə" adlandırdı. Deputatın hədiyyə alması ilə bağlı cəzalandırılmasını nəzərdə tutan maddəni "deputatın kiçildilməsi", "parlamentin nüfuzdan salınması" kimi qiymətləndirdi:** "Onsuz da hansısa bəndlərlə kiminsə davranışlarına, tərbiyəsinə təsir etmək mümkün deyil. Ona görə də bu layihəyə yenidən baxılmasını xahiş edirəm".

**Deputat Fazil Mustafa da layihənin əleyhinə çıxdı:** "Əsas mübahisəli motiv ondan ibarətdir ki, bu, konstitusiyada nəzərdə tutulub, qəbul olunmalıdır. O vaxt da bizim etiraz etdiyimiz məhz bu maddə olub. Ancaq qəbul edilib. MSK hansı qüvvələrdən formalaşdırılır? Niyə parlament formalaşdırmır? Parlament fikir müxtəlifliyinin olduğu spesifik bir qurumdur. İntizam komissiyasında müəyyən məsələlərə rəy vermək, ümumiyyətlə, mümkün deyil. Kimsə desə ki, hökumətin fəaliyyəti yarıtmazdır. Deməli, İntizam komissiyası "yarıtmaz" sözünün təhqir olduğunu deyib deputatı mandatdan məhrum edəcək? Heç olmasa, ayrıca bir maddə müəyyən etməliyik ki, deputatın mandatdan məhrumolunma ilə bağlı Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ tanınmalıdır ki, hansısa təsadüfi qərarların qurbanına çevrilməsin. Bu, parlamentin nüfuzuna da xələl gətirə bilər. Yaxud azlıqda olan partiyalar haqqında qərar çıxarıla bilər".

**Deputat Siyavuş Novruzov isə əks arqumentlərlə çıxış edərək dedi ki, 5 il İntizam komissiyasına rəhbərlik etdiyi dövrdə cəmi iki məsələyə baxıb. Amma vətəndaşların deputatların etik davranışları ilə bağlı müraciətlərinin sayı 2 mini keçib:** "Əgər biz öz davranışımıza nəzarət edə bilmiriksə və qorxuruqsa ki, sabah başımıza bir iş gələr, anlaşılan deyil. İnsan özünü düz aparsa, ondan kim şikayət edəcək ki? Onda biz Cinayət Məcəlləsinin də olmasına etiraz etməliyik ki, insanların hüquqlarını pozur. Bu, ondan ötrüdür ki, insanlar cinayət əməlinə yol verməsinlər". S.Novruzov bu qanunun parlamentin səlahiyyətlərinin azaldılmasına deyil, parlamentin şəffaf fəaliyyətinə gətirib çıxaracağını söylədi. Deputat mandat məsələsinə baxılması üçün üçdə iki faiz səs çoxluğu barədə əlavə edilməsinin mümkün saydı: "ABŞ Konqresində belədir ki, 300 dollardan artıq məbləğdə hədiyyə qəbul edirsə, onu evinə apara bilməz. Bizdə bunu 50 manat civarında müəyyənləşdiriblər, təbii ki, bu, o qədər də uyğun deyil, buna yenidən baxıla bilər". S.Novruzov ilk oxunuşda qəbul etməyi təklif etdi.

**Spiker də dedi ki, qanun yenidən işlənməli, yumşaldılmalıdır.**

**İlk oxunuşda qanun layihəsi qəbul edildi.**

**Elşad PAŞASOY**



# Şeyxin Finlandiya səfəri

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud AYB-də idmana mənfi münasibət

**Şübhəsiz, ölkəmizdə savadlı, təhsilli insanların 100 faiz olması sevindiricidir. Elə dünən onlardan iki xəbər gəldi. Bədən Tərbiyəsi Akademiyasının həyətində Tibb Universitetinin tələbəsini bıçaqlayıblar. Dövlət İqtisad Universitetinin binasında isə tələbə qızlar dalaşıb, biri üzündən xəsarət almışdır. Hər iki tələbə xəstəxanaya yerləşdirilib, necə deyərlər, araşdırma gedir.**

Burada mənim diqqətimi çəkən odur ki, Bədən Tərbiyəsi Akademiyasının uşaqları niyə bıçaq işlədirlər? İdman dərsləri keçilmirmi? Görünür, birinci kurslar olub. O cümlədən gələcəyin hakiminin bıçaq zərbəsi alması və xəstəxanaya yerləşməsi peşə təcrübəsi üçün lazımdır. “Narxoz”un qızlarının cırmaqlaşması da həmçinin. Axı onlar gələcəkdə iqtisadiyyatımızın keşiyində durmalı olacaqlar. Manatı qoru, vergi topla, kreditləri yığ - hamısı cırmaqlaşma, “şram” atmaq üzrə ciddi praktika tələb edir. Mən özüm “Narxoz”u bitirəndə təcrübəmi İqtisadiyyat Nazirliyində keçmişəm, ona görə qəzetdə köşə yazıram. Vaxtında düzgün yol göstərən olmadı.

Məktəblərimizdə belə qanlı hadisələrin olması bizə ABŞ təhsil sistemini xatırladır. Orda məktəbdə atışma, qırğın xəbərləri adi haldır, bir növ bizdə Misir müəllimin vaxtında süpürgə pulu yığılması kimi. İndi məntiq deyir ki, bizim məktəblər Amerika məktəblərinə oxşamağa başlayırsa, Azərbaycanın hegemon dünya dövlətinə çevrilməsinə kim şübhə edir? Şübhə edəni Kürdəxanı Türmə İstirahət Mərkəzində maraqlı kameralara yerləşdiririk, qısa vaxtda şübhələri dağılır.

O baxımdan, mən Azərbaycan Yazıçılar Birliyinin sədri hörmətli Anar müəllimin İslam Həmrəyliyi Oyunlarına münasibətini bəyənmədim. Jurnalist sual verib ki, siz bu oyunlara baxacaqsınızmı, Anar müəllim deyib: “Mən idmançı deyiləm. Ancaq tamaşaçı kimi dəvət olunsam gedəcəyəm”.

Bildiyiniz kimi, bu oyunlar Bakıda olacaqdır, hər bir zəhmətkeşimiz də önəmli dövlət tədbirinə diqqətlə yanaşmalıdır. Xalqın yazıçısı isə deyir mən idmançı deyiləm... Nə dəxli var? Guya biz hamımız idmançıyıq? Guya Azad müəllim bədii gimnastika ilə məşğuldur, ya Abid müəllim marafonu 1 saata qaçır? Yox. Sadəcə, bu vətəndaşlarda dövlətçilik təfəkkürü güclüdür. İndi Anar müəllim də İslam Həmrəyliyi Oyunlarına aid roman, hekayə yazmaq əvəzinə, AYB-də tədbirlər, şeir yarışmaları, hekayə dartışmaları, dram qapışmaları keçirmək yerinə deyir idmançı deyiləm... Dəvət gözləyirmiş... Olmadı ki. Ta millətin qabaqda gedəni bu cür yarışa belə dırnaqarası, laqeyd münasibət göstərdisə, qara camaatdan nə umasan? Gözləyirik, məncə, hələ vaxt var, AYB oyunlara münasibətini ciddiləşdirməyə borcludur.

Özü də sizə bir söz deyim, bunlar müstəqil dövlətimizi, YAP rəhbərliyini müəyyən dərəcədə üzüyumşaq görüblər. Heç sovet vaxtı belə danışa bilərdilərmi? Təsəvvür edin, Moskvada 1980-ci ilin Olimpiadası keçirilir, müxbir zəng vurur Anar müəllimə, o da deyir mən idmançı deyiləm... Vay, vay... Qəti mümkün deyildi. O vaxt Yazıçılar Birliyinin rəhbərliyindəki hər bir adam olimpiada halqaları haqqında azı poema yazıb “Lenin mükafatı” alırdılar. İndi də mükafat alırlar, lakin poema yazmağa ərinirlər.

Elə daha hörmətli şeyximiz Allahşükür müəllimin də islam oyunlarına münasibəti, yumşaq yazsam, təəccüblüdür. Ölkə bu cür vacib tədbir ərəfəsindədir, hətta dünəndən yollardakı sarı zolaqlara giriş qadağası qüvvəyə minibdir, şeyx isə çıxıb gedib... Finlandiyaya! Sən canın, heç Finlandiya yeri idi? Dekabr ayı olsa bəlkə Santa Klausu ibadətə dəvət etmək üçün getdiyini düşünərdik, may ayında, Bakıda 57 İslam dövləti arasında idman oyunları keçiriləcək bir ərəfədə Helsinki səfəri çox vacib idimi?

İndi söz əlaqədar təşkilatlarındır - şeyxin nazir qutusunun birini alıb mənə verin.

---




# Gözlər Soçidə - Ərdoğanla Putinin kritik görüşü

## Bu gün Türkiyə və Rusiya prezidentləri qısa fasilədən sonra yenidən bir araya gələcəklər; masada nələr var? Az sonra Trampla görüşəcək Türkiyə lideri ABŞ-a Moskvanın hansı mesajını aparacaq? Kremlin ideoloqu səfər öncəsi Bakıya gəldi - səbəb...

**Bu gün Türkiyə prezidenti Rəcəb Təyyib Ərdoğan Rusiyaya gedir. Xəbər verildiyi kimi, Türkiyə dövlət başçısı Soçidə rusiyalı həmkarı Vladimir Putinlə bir araya gələcək. İki regional supergüc rəhbərlərinin bugünkü görüşünün dünya gündəminin əsas mövzularından olacağı gözlənilir. Bu da məntiqlidir.**

Əvvəla, həm Türkiyə, həm də Rusiya hələ də davam edən Yaxın Şərq böhranının dinc həll prosesinə mühüm təsir imkanı olan və ciddi töhfə vermək imkanına malik oyunçulardır. Yeni müzakirə predmetlərindən ən birincisi kimi Suriya, İŞİD məsələlərinin diqqətdə saxlanacağı gözlənilir.

Xüsusən də Bəşər Əsədin taleyi ilə bağlı mövzuya müəyyən aydınlıq gətirilə bilər. Məlumdur ki, Astanada Suriyaya dair çoxtərəfli danışıqların dalana girməsində bu problem böyük rol oynayıb. Həmçinin PKK ilə bağlı Ərdoğanın Putindən dəstək istəyəcəyi gözləntisi var.

***

“Görünür, Putin Rakka şəhərinin azad olunması uğrunda döyüşlərdə Türkiyə ordusunun dəstəyinə ehtiyac duyur. Türkiyə Rakka şəhərinin azad olunması əməliyyatında Rusiya ilə əməkdaşlığı davam etdirə bilər, ancaq bunun reallaşması üçün Ankaranın şərti var. Şərt isə budur ki, Rusiya Suriyadakı silahlı kürdləri dəstəkləməməlidir! Ərdoğan bu məsələni Soçidəki görüşdə Putinin qarşısında qaldıracaq. Qarşılığında Putin Suriyada silahlı kürdlərə dəstəkdən imtina edəcəkmi? Bu suala birmənalı cavab yoxdur”. Bu fikri politoloq Elxan Şahinoğlu Ərdoğanın Soçi şəhərinə bugünkü səfərini şərh edərkən qəzetimizə söyləyib.

Bundan əlavə, sırf ikitərəfli iqtisadi-ticari əhəmiyyət kəsb edən məsələlər də diqqət mərkəzində olacaq. Bu xüsusda son vaxtlar iki dövlət arasında iqtisadi-ticari sferalarda özünü göstərən əngəllərin aradan qaldırılması üçün səylər göstəriləcəyi gözlənilir. Habelə Rusiyanın Türkiyəyə "S-400" raket komplekslərinin satması, regional və qlobal əhəmiyyətli digər mövzuların müzakirəsi istisna olunmur.

***

İki liderin görüşü daha bir neçə aspektdən maraq doğurur. Bunlardan biri Ərdoğanın ziyarətinin Türkiyə-Avropa münasibətlərinin ən gərgin dönəminə təsadüf eləməsidir. Görəsən, bu gərginlik tərəflərdən hansı birinin - Moskvanın, yoxsa Ankaranın xeyrinə işləyəcək? Rusiya Avropa ilı bağları xeyli laxlamış Türkiyənin istəklərini indi daha ciddi şəkildə nəzərə alacaqmı, yoxsa əksinə, fürsətdən yararlanıb Ankaraya öz şərtlərini qəbul etdirməyə çalışacaq?

Nəhayət, Putinlə görüşdən az sonra - mayın ortasında Ərdoğan ABŞ-a yollanacaq və prezident Donald Tramla görüşəcək. Bu mənada Soçi görüşü ABŞ səfəri öncəsi iki liderin “saat əqrəblərini tutuşdurması” xarakteri də daşıya bilər. Onu da nəzərə alsaq ki, Ankara və Moskva nə qədər tərəfdaş olsa belə, konkret olaraq Bəşər Əsəd məsələsində Ərdoğan Putindən fərqli, Trampla isə eyni mövqe tutur, o zaman Türkiyə prezidentinin okeanın o tayına konkret mesaj aparacağını da ehtimal eləmək mümkündür.

***

Soçi görüşü müəyyən mənada Azərbaycan üçün də önəm daşıyır. Təkcə ona görə yox ki, qardaş ölkənin böyük bir geosiyasi arealda manevr imkanlarının genişlənməsi, güclənməsi Azərbaycanın da güclənməsi deməkdir, həm də o səbəbə ki, Türkiyə-Rusiya əlaqələrinin daha aydın, proqnoza yatımlı və səmimi olması Dağlıq Qarabağ məsələsində real dönüşə və Rusiya-Türkiyə-Azərbaycan üçlü formatının qurulmasına etibarlı zəmin yarada bilər.

Bəzi ehtimallara görə, liderlər Cənub Qafqazda situasiyanın müzakirəsi çərçivəsində Dağlıq Qarabağ probleminə də toxunacaqlar. Bu və digər səbəblərdən səfər işğalçı Ermənistanda və onun siyasi-ekspert dairələrində də diqqət mərkəzindədir.

Ancaq bütün hallarda Türkiyə və Rusiya bölgədə özəl, üst-üstə düşməyən maraqlar izləyən iki böyük dövlətdir. İki ölkə arasında iqtisadi-ticari, hətta hərbi sahədə nə qədər yaxınlaşma, anlaşma olsa da, bu müəyyən həddə kimi mümkündür. Çünki Rusiya Asiya ölkəsi olaraq daha çox Asiyaya, Türkiyə isə Avropa ölkəsi olaraq daha çox Avropaya bağlıdır. Qardaş ölkə, üstəlik, NATO üzvü olmaqla tam fərqli, hətta əks-qütblü təhlükəsizlik sistemlərində yer alır.

***

Mövzuya bu və ya digər dərəcədə dəxli olan mühüm detallardan biri də, fikrimizcə, Kremlin “danışan dili” və ideoloqlarından biri, Rusiya Avrasiya Hərəkatının lideri, Putinin müşaviri sayılan politoloq Aleksandr Duqinin məhz Ərdoğanın Rusiya səfəri ərəfəsi Bakıda peyda olmasıdır.

O Duqin ki, Türkiyədə 15 iyul dövlət çevrilişinə cəhddən az sonra qardaş ölkədə olmuş Moskvanın bəzi mesajlarını aparmışdı. Məhz onun səfərindən sonra hərbi çevriliş cəhdinin sifarişçiləri və icraçılarının çevrəsi qısa zamanda bilindi.

İlkin məlumatlara görə, ölkəmizə Azərbaycan rus icmasının dəvəti ilə təşrif buyuran Duqinin Bakı səfərinin proqramına rəsmi şəxslərlə və ictimai təşkilatlarla görüşlər, Bakı Slavyan Universitetində mühazirə, Azərbaycan rus icmasının nümayəndələri ilə görüş, ölkənin elmi və intellektual dairələrində təmaslar daxildir.

Dağlıq Qarabağ məsələsində qeyri-ordinar, bəzən isə sensasion yanaşma sərgiləyən bu şəxsin Azərbaycanın rəhbərliyi səviyyəsində qəbul edilib-edilməyəcəyi barədə isə heç bir bilgi yoxdur. Lakin bütün hallarda bir sual öz aktuallığını saxlayır: görəsən, Kremlin ideoloqu Bakıya hansı ismarışla gəlib - üstəlik, Ərdoğanın Soçi ziyarəti ərəfəsi?..

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 93 (6707) 3 may 2017

**Beynəlxalq Avrasiya Hərəkatının rəhbəri, Kremlin ideoloqu kimi tanınan politoloq Aleksandr Duqin mayın 1-dən Azərbaycanda səfərdədir. Onun Azərbaycana Azərbaycandakı rus icmasının dəvəti ilə gəldiyi bildirilir. Bəs Aleksandr Duqinin Azərbaycana gəlişinin Azərbaycan üçün hansısa əhəmiyyəti ola bilər?**

# Kremlin ideoloqu Duqinin Bakı səfərində əsas hədəf

## Qabil Hüseynli: "Duqin çaplı rus politoloqları ilə işləmək hərbi əməliyyatlar kimi vacib məsələlərdən biridir"



**Politoloq Qabil Hüseynli A.Duqini əhəmiyyətli adam adlandırdı:** "Duqin öz ölkəsində və dünyada ictimai fikri formalaşdırmağa qatqısı olan politoloqdur. Belə bir adamın ölkəmizə gəlişinin əhəmiyyətinin olmadığını söyləmək yanlış olardı. Əgər bu gün ermənilər informasiya müharibəsində bəzi sahələrdə bizi qabaqlayırlarsa, onlar məhz lobbiçilik fəaliyyəti və lobbiçilik fəaliyyətinin nəticəsi kimi bu cür politoloqlara və ictimai rəyi formalaşdıran digər sənət sahiblərinə yol tapmaları, onlara təsir göstərmələri ilə buna nail ola bilirlər. Duqin Rusiyada çox tanınmış adamlardan biridir, Kremlə yaxın şəxsdir. Kremlin "mətbəxinə" yaxın buraxılan bir adam kimi o, geniş informasiya bazasına malikdir. Bu informasiyanın çoxluğu səbəbindən də çox zaman verdiyi proqnozlar həqiqətə xeyli yaxın olur. Duqin hadisələrin inkişaf meylini modelləşdirə bilir. Bu modelləşdirmə real gerçəkliyə ya çox yaxın olur, ya da tamamilə üst-üstə düşür. Çünki o, məlumatı ilk qaynaqlardan alır. Bu cür adamlar haqqında danışarkən Vladimir Jirinovski nümunəsinin misal gətirilməsi düzgün müqayisə deyil. Çünki Jirinovski həm fırıldaqçıdır, həm də sabitqədəm adam deyil. Jirinovski alıb-aldadandır, təbiət etibarilə çox sürüşkən adamdır. Amma Duqin ciddi adamdır".

**Q.Hüseynli qeyd etdi ki, Duqinlə bərabər Rusiyada xeyli ciddi politoloqlar var. Onların böyük qismi ermənipərəst mövqedədir. Duqinin özü də azərbaycanpərəst deyil:** "Bax, bu nöqteyi-nəzərdən ermənipərəst mövqedə dayanan və Kremlə yaxın olan, Kremlə müəyyən qədər təsiri olan politoloqların, tanınmış jurnalistlərin Azərbaycana gətirilməsini, onlara reallıqları təbliğ edib mövqelərinə təsir edilməsini lazımlı iş hesab edirəm. Rusiyada fikir sahibləri, ictimai rəyə təsir etmək imkanı olan adamlar nə qədər çox Azərbaycana dəvət edilsə və reallıqlar onlara çatdırılırsa, Azərbaycanın xeyrinədir. Hesab edirəm ki, Duqin kimi adamları, imkan olsa, cəbhə xəttinə, cəbhəyə yaxın bölgələrə aparsalar və o cür adamlar ermənilərin o bölgələrə vurduğu zərbələri, insanları hətta su qıtlığına məhkum etdiyini öz gözləri ilə görsələr yaxşı olar. Bu cür adamların gerçəkliyi görməsi onların mövqeyinə təsir edə bilər. Bu isə gələcəkdə ictimai fikrin Azərbaycanın xeyrinə tənzimlənməsində böyük rol oynaya bilər. Bu baxımdan, Duqini Azərbaycana kim dəvət edibsə, kim onun səfərini təşkil edibsə, çox doğru hərəkət edib".

**Politoloq onu da vurğuladı ki, Duqin Bakıda olduğu müddətdə ondan maksimum istifadə etmək lazımdır:** "Maksimum istifadə deyəndə mən Duqinə daha çox informasiya ötürülməsini, eyni zamanda ona Azərbaycan həqiqətlərinin praktiki surətdə çatdırılmasını nəzərdə tuturam. Yəni biz Duqini öz lobbiçilərimiz sırasına daxil edə bilsək, ən azından onun nə ermənipərəst, nə azərbaycanpərəst mövqedə olmayıb orta mövqedə dayanmasını təmin edə bilsək, bu çox böyük əhəmiyyətə malik olacaq. Bizə həqiqətlərin deyilməsi lazımdır. Odur ki, Duqin çaplı rus politoloqları ilə işləmək müharibə meydanlarında aparılan hərbi əməliyyatlar kimi vacib amillərdən biridir".

❑ Etibar SEYİDAĞA

# Türkiyə-Rusiya münasibətlərinin inkişafını ləngidən səbəblər...

## Politoloq: "Moskva ikibaşlı oyun oynayır"

**Rusiya-Türkiyə münasibətlərində son dövrlər gərginlik müşahidə olunmasa da, əlaqələrin inkişafının da ləng getdiyi müşahidə olunur. Hələ də "təyyarə olayı" ərəfəsində tərəflərin bir-birilərinə qarşı tətbiq etdikləri sanksiyaların bəziləri aradan qaldırılmayıb. Türkiyənin Avropa ilə də münasibətləri gərginləşən xəttə üzrə inkişaf edir. Ekspertlər qeyd edirlər ki, belə bir məqamda Rusiya-Türkiyə münasibətlərinin düzəlməməsinin səbəbkarı rəsmi Moskvadır.**



Elxan Şahinoğlu

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a bildirib ki, Putin hökuməti Türkiyə ilə münasibətlərində sanki gözləmə mövqeyindədir: "Bu məsələdə günahkar Rusiyadır. Çünki Türkiyə Rusiya üçün mümkün olan bütün güzəştləri edir. Təyyarənin vurulmasından sonra Türkiyə tərəfi üzr də istədi, Moskvanın bütün şərtləri ilə də razılaşdı. Sadəcə olaraq, Moskva ikibaşlı oyun oynayır. Bir müddət öncə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiyaya səfər etdi və Moskvada Putinlə birlikdə mətbuat konfransına çıxdı. Orada Ərdoğan jurnalistlərə xitabən belə bir fikir işlətdi ki, artıq "nomallaşdırma" sözünü işlətməyin, çünki münasibətlər normallaşıb və inkişaf edir. Lakin geri qayıtdıqdan sonra bəlli oldu ki, münasibətlərdə heç də hər şey normal deyil. Doğrudur, turizm sahəsində Rusiya qadağaları aradan qaldırdı və yay aylarında yenə də Türkiyəyə böyük turist axını gözlənilir. Bu, Türkiyə üçün çox vacibdir. Çünki təyyarə qəzasından sonra Rusiya hakimiyyəti öz vətəndaşlarına Türkiyəyə getməyi faktiki qadağan etmişdi. Bu isə Türkiyənin turizm şəhərlərinin bir çoxunun boşalmasına səbəb olmuş, gəlirlər xeyli azalmışdı. İndi isə məsələ həll olunub. Lakin digər məsələlər hələ də həllini tapmayıb. Məsələn, Türkiyə Suriyadakı silahlı kürdlərə dəstək məsələsində çox həssasdır. Rusiyanın bu məsələyə diqqətlə yanaşılması istənilsə də, çox təəssüf ki, belə olmur. Əksinə, yaxın günlərdə Rusiya hərbiçilərini silahlı kürdlərlə birlikdə fotoları yayıldı. Yaxud da Rusiya hələ də Türkiyədən gələn kənd təsərrüfatı məhsullarına qarşı öz sərhədlərini tam açmayıb. Türkiyənin əsas məhsulu olan pomidor yenə də sərhəddə ilişib qalır. Buna cavab olaraq isə Türkiyə Rusiyadan taxıl alınır. Yaxud da başqa bir məsələyə diqqət edək ki, Türkiyə jest edərək, Ərdoğanın Moskva səfəri ərəfəsində Rusiya turistlərinə vizasız gəlişi 60 gündən 90 günə qədər uzatdı. Lakin Rusiya bu addımı atmağa tələsmir, sanki nəyisə gözləyir".

**Politoloq bildirib ki, Ərdoğanla Putinin görüşündən də müəyyən nəticələr gözləmək olar:** "Əslində kürdlərə verilən dəstək Türkiyəni narahat etsə də, hər halda, Rusiya ilə müəyyən əməkdaşlıq istiqamətləri də var. Rusiyanın Suriyadakı varlığını Türkiyə artıq qəbul edib. Eyni zamanda Rusiya da Türkiyənin hərbi varlığı ilə razılaşıb. Bu istiqamətdə müəyyən irəliləyiş ola bilər. Məncə, görüşdə kənd təsərrüfatı ilə bağlı məsələlərə də mütləq mənada aydınlıq gətiriləcək. Əgər Rusiya addım atsa, düşünürəm ki, Türkiyə də taxılla bağlı qoyduğu embarqonu aradan qaldıracaq. Hesab edirəm ki, Rusiya prezidenti Putin Ərdoğanı Soçiyə dəvət edibsə, deməli, söyləmək istədiyi sözü, təklifi var. Putin istəsə münasibətləri daha çox inkişaf etdirə bilər. Keçiriləcək görüşün nəticələrindən çox şey asılıdır. Rusiya ilə Türkiyə arasında tarixi proseslərin təkrarlanması gözlənilmir. Bəli, "soyuq müharibə" dövründə Türkiyə Amerikanın yanında idi. Ancaq artıq bu müharibə başa çatıb və Amerika ilə Türkiyənin də bəzi hallarda zidd maraqları üzə çıxır. Misal üçün, vaxtilə Obama ilk səfərini Türkiyəyə etmişdi və Ərdoğan düşünürdü ki, onunla yaxınlaşa bilər. Lakin Obama kürdlərə dəstək verdi, silahlı çevriliş etmək istəyən Fətullah Güləni ekstradisiya etmədi. Tramp da sanki eyni siyasətə sadiq qalır. Çünki Amerikanın hərbiçiləri də Suriyada silahlı kürdlərlə birlikdə növbə çəkirlər. Üstəlik, Tramp administrasiyası da eyni qaydada üzrə Güləni Türkiyəyə verməyə tələsmir. Yəni eyni situasiya, ziddiyyətli maraqlar yerində qalır. Ona görə də Türkiyə məcburdur ki, manevr etsin. Rusiya ilə çox böyük ticarət, enerji layihələri var. Təyyarə olayı vəziyyəti gərginləşdirsə də, görünən budur ki, Türkiyə daha çox Rusiya ilə əməkdaşlığa can atır. Rusiya da çox istəyir ki, Türkiyəni NATO blokundan öz tərəfinə çəksin. Türkiyə yeganə NATO ölkəsi oldu ki, Suriyada Rusiya ilə birgə əməkdaşlığa başladı. Hətta təyyarələrə də birgə keşik çəkdilər. Bu, NATO tarixində ilk dəfə yaşanan bir hadisə idi".

**E.Şahinoğlu iki ölkənin münasibətləri fonunda Qarabağ məsələsinin də yer aldığını bildirdi:** "Türkiyə çox istəyir ki, Rusiya Ermənistan hakimiyyətinə təsir edib Qarabağ münaqişəsinin həllini sürətləndirsin. Bu halda Türkiyənin Ermənistanla da münasibətləri normallaşacaq, sərhədlər açılacaq. Hətta Azərbaycan və Türkiyənin Avrasiya İqtisadi Birliyinə üzvlüyü məsələsi də mümkündür. Yetər ki, Rusiya addım atsın. Ancaq Rusiya bu addımı da atmır. Ona görə də Rusiya və Türkiyə yaxınlaşmasının hələ ki bölgəyə ciddi bir təsiri yoxdur. Türkiyənin Avropa ilə münasibətlərinə gəlincə, burada da maraqlı bir situasiya yaranıb. Referendum öncəsi gərginlik yaşansa da hazırda hər iki tərəf ritorikanı yumşaldır. Ərdoğan da mesaj göndərib ki, əleyhimə təbliğat aparsanız da bunu unutmağa hazıram. Avropadan da müəyyən isti mesajlar var. Ancaq düşünmürəm ki, bu isti mesajlar Avropa ilə Türkiyənin yaxınlaşmasını sürətləndirsin. Çünki Avropanın ikili siyasəti də var. AŞ PA-dakı məlum qərar da Türkiyə ilə yaxınlaşmaya xidmət etmir. Üstəgəl, Avropa İttifaqı da yəqin ki, üzvlüklə bağlı ciddi addım atmayacaq. Bunun qarşılığında isə Türkiyə ölüm cəzasını qanuniləşdirərsə, münasibətlər gərginləşəcək. Bu məqamda da ilk addımı Avropa atmalıdır. Türkiyə-Avropa münasibətlərinin istiləşməsini gözləmirəm. Türkiyə daha çox Şərqə doğru yön alıb. Fikir verin ki, Ərdoğan bugünlərdə Hindistana səfər etdi, Moskvaya gedir, daha sonra isə Çinə səfər planlaşdırır. Avropa durumu elə bir həddə gətirdi ki, Türkiyəni yanına almaq əvəzinə, incik saldılar. Türkiyə isə alternativ yollara baş vurub, Şərqə doğru istiqamət götürdü. Bu məsələdə uduzan Avropa və Amerika olacaq".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 93 (6707) 3 may 2017



# Tanınmış jurnalistin qəfil ölümü-həmkarları Zöhrab Əmirxanlının itkisindən danışdılar

## Zöhrab Əmirxanlı doğma yurdunda torpağa tapşırılıb



**Jurnalist Zöhrab Əmirxanlı mayın 1-i gecə qəflətən vəfat edib. Mayin 2-də Zöhrab Əmirxanlı torpağa tapşırılıb. Lent.az-ın məlumatına görə, onun nəşi Şamaxıda, ata yurdunda dəfn edilib. Dəfn mərasimində mərhumun ailə üzvləri, yaxınları və həmkarları iştirak edib.**

Zöhrab Əmirxanlı 1958-ci ildə Şamaxı şəhərində anadan olub. 1987-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. “Bakı”, “Respublika”, “Ülfət”, “Millət”, “Səhər”, “Azadlıq”, “Gündəlik Teleqraf”, “Aydın yol” qəzetlərində müxtəlif vəzifələrdə çalışıb.

“Hürriyyət” və “Şans” qəzetlərinin baş redaktoru olub.

Mərhum jurnalist uzun illərdi şəkərli diabetdən əziyyət çəkirdi.

Mərhumun yaxın dostları olan tanınmış jurnalistlər onunla bağlı təəssüratlarını modern.az saytı ilə bölüşüblər.

**Şair Qulu Ağsəs:** “Söz üçün yanan, söz üçün əriyən, istedadlı qələm adamlarından idi. Jurnalistikanı, Azərbaycanı, ailə və övladlarını çox sevirdi. Həyat yoldaşı da çox istedadlı jurnalist idi - Mehriban Əbülfətqızı. Mehriban xanımın qəfil vəfatı dünyada onsuz da özünə yer tapa bilməyən Zöhrabı bir az da ölümə tərəf çəkib apardı. Həddindən artıq çox istədiyi xanımının vəfatından sonra kompasını tamam itirdi. Həyat kompası tamam yoxa çıxdı. Artıq hara getdiyi, hardan gəldiyi də bilinmirdi. Dostlarının bütün təsəllilərinə rəğmən, onu qorumaq mümkün olmadı”.

**Jurnalist Rəsul Mirhəşimli:** “Zöhrabı ”Azadlıq" qəzetindən tanıyırdım. 1990-cı illərdə bu qəzetin humanitar şöbəsində müdir işləyirdi. Zöhrab çox istedadlı olmaqla yanaşı, həddindən artıq nəcib insan idi. Düşünürəm ki, ondan inciyən kimsə olmaz bu həyatda. Zöhrabın yazıları insanı heyrətə salacaq qədər dəyərlidir. Həmin yazıları oxuduqca, oxucu sanki həmin sətirlərdə yaşayırdı. Zöhrabı xatırlayanda ilk ağla gələn cəhəti çox sakit şəkildə adama yaxınlaşmağı, həddən artıq məhrəm şəkildə hal-əhval tutması olur. Biz Zöhrabın simasında çox böyük istedad sahibini itirdik. Dəyərini almayan, istedadı qiymətləndirilməyən jurnalistlərdən biri də ayrıldı aramızdan. Zöhrab kəskin şəkər xəstəliyindən əziyyət çəkirdi. Bundan əlavə, Zöhrabı ölümə aparan yolu sürətləndirən ömür-gün yoldaşı Mehriban xanımın yoxluğu oldu".

**Jurnalist Qurban Yaquboğlu:** “Zöhrabla üç dəfə bir redaksiyada çalışmışıq - ”Şans", “Gündəlik Teleqraf” və “Aydın yol” qəzetlərində. Ancaq onunla Bərdə səfərini heç vaxt unutmayacam. Bərdədən bir dostumuzun atasının yas yerindən qayıdırdıq. İki dostumuz yolda düşdü, sürücü istisna, maşında Zöhrabla tək qaldıq! Onun axşam toranında öz bioqrafiyasından, yeniyetmə və gənclik illərindən danışdıqları elə bil əbədi bir ağrının ayrı-ayrı epizodlarıydı: ilk sevgisi, Kürdəmirdəki qohum qıza aşiq olması, onu erkən yaşda haqlamış şəkərin ağrıları haqda söylədiyi xatirələrin sızıltısına dözmək çox çətin idi. Biz gecə Kürdəmirdə, onun xatirələr yurdunda qaldıq və səhər tezdən, təzə xatirələr oyanmamış ordan çıxdıq. Allah rəhmət eləsin".

**Rauf Arifoğlu və “Yeni Müsavat” qəzetinin kollektivi dəyərli qələm sahibi olan Zöhrab Əmirxanlının vəfatından kədərləndiklərini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Allah rəhmət eləsin.**

# Fazil Mustafanın “bölgə adlarından imtina edin” təklifinə sərt reaksiyalar

**“Əlimdə imkan olsaydı, bir çox peşə sahiblərinə, ələlxüsus da müğənnilərə, şou-təqdimatçılarına təxəllüs olaraq hansısa bölgənin adını götürməyi yasaqlayardım”. Bu sözləri deputat Fazil Mustafa sosial şəbəkədə bildirib. O, bölgə adları götürən şəxslərə davranışlarında daha ciddi, ədəbli olmağa çağırış edib:**









**Xuraman Şuşalı:** “Bu fikirlə heç də razı deyiləm, hərə özünə cavabdehdir”
**Afaq Gəncəli:** “Sənətçilərdən kimsə bölgə adı götürürsə, əcəb edir”
**Rüstəm Behrudi:** “Fazil Mustafa öz işləri ilə məşğul olsun”

“Deyərdim ki, öz soyadın varsa, atanın adı varsa, yaxud da hansısa duyğuları özündə ifadə edən adlar varsa, buyurub götürün, ancaq bu bölgə adından bir az uzaq durun. İşdir, əgər bunsuz keçinmək ölüm-dirim məsələsidirsə, o zaman davranışlarınızda daha ciddi, təmkinli, ədəbli olmağa xüsusi diqqət yetirin”.

**Deputat qeyd edib ki, bəzi bu cür şəxslər ictimai diqqətin yönəldiyi yerlərdə səviyyəsiz, ədəbsiz, yüngül hərəkətlər etməklə yanaşı, həm də bütöv bir bölgəni töhmət altında qoyur, yaxud da ironiya hədəfinə çevirir:** “Həm də bu mənasız və gərəksiz bir regionçuluq duyğusunu cəmiyyətimizdə cücərdir. Naxçıvanlı, Gəncəli, Borçalı, Bərdəli, Qazaxlı, Lənkəranlı, Tovuzlu, Xaçmazlı və s. bölgəsəl təxəllüslər götürüb abırlı davrana bilmirsənsə, niyə kimsə məhz o bölgədən olduğuna görə sənin davranışından xəcalət çəkməlidir?”.

Qeyd edək ki, son günlərdə mətbuatda Tovuzlu təxəllüslü müğənni Şəbnəm Əsədova ilə bağlı biabırçı məlumatlar yayılmaqdadır. Bu səbəbdən bəziləri müğənninin bölgə adını özünə təxəllüs götürməsini tənqid edib. Lakin məlum olduğu kimi, bölgə adını götürən təkcə adıçəkilən müğənni deyil, bu siyahıda aşıq Telli Borçalının, Xuraman Şuşalının və digərlərinin adını çəkmək olar. Ümumilikdə isə təkcə şou-biznes nümayəndələri deyil, zamanla bir çox peşə sahibləri, o cümlədən şair və yazıçılar doğulduğu bölgələrin adlarını özlərinə təxəllüs götürüb və bu adla tanınıblar. Hətta bölgə adlarını götürən məşhur muğam ustadlarımız var, hansı ki, onların əsl adları çoxlarına məlum deyil və həmin sənətçilər məhz təxəllüslərinə görə bu günə qədər tanınır, sevilirlər. Məsələn, Mir Möhsün-ağa Seyid (Şuşinski), İsfəndiyar Cavanşirov (Xan Şuşinski).

**Maraqlıdır, bəs özlərinə bölgə adını təxəllüs kimi seçən sənətçi, şair və yazıçılar deputatın tənqidini necə qarşılayır?**

**Müğənni Xuraman Şuşalı deputatın fikri ilə heç də razı olmadığını bildirdi:** “Mənə bu soyadı görkəmli bəstəkarımız Süleyman Ələsgərov verib. 16 yaşımda konservatoriyaya onun yanına getmişdim. Məni dinlədi və soruşdu ki, ”sənin familiyan nədir?", dedim ki, Hüseynova. Mən onda “Bənövşə uşaq xoru”nun solisti idim və İncəsənət Gimnaziyasında oxuyurdum. Demək istəyirəm ki, həmin vaxtlar mən artıq efirlərə çıxırdım, Azərbaycan Dövlət Televiziya və Radiosu Xorunun solisti idim. Dedi ki, “sən təqdimatda özünü Xuraman Şuşalı kimi təqdim et”. O gündən bu günə qədər mən özümü bu cür təqdim etmişəm. Burda mən gözəllik görürəm, pis heç bir şey görmürəm. Üstəlik, Şuşa işğal altındadır və mənim hansısa xarici ölkədə tədbirdə adım çəkiləndə soruşurlar ki, “siz şuşalısız, Şuşa ermənilərin deyil?” Deyirəm ki, “xeyr, Şuşa bizimdir, Azərbaycanındır, mən oralıyam və gec-tez topağımız geri qayıdacaq”. Yəni mən burda gözəllikdən, təbliğatdan başqa heç bir şey görmürəm. Mən birmənalı şəkildə deyirəm ki, bu fikirlə razı deyiləm, hərə özünə cavabdehdir. Bu torpağın yetirşdirdiyi istər xanım, istərsə də bəy özünə cavabdehdir. Hər yerin pisi də, yaxşısı da var".

**Aparıcı Afaq Gəncəli isə məsələyə bu cür münasibət bildirdi:** “Bundan əvvəl də dəfələrlə qeyd etmişəm ki, mən gəncəli deyiləm, bu ləqəb, təxəllüs deyil, öz soyadımdır. Amma bu belə olmayan halda belə, lap mən bunu təxəllüs götürmüşəm, heç bir zaman Gəncənin adına ləkə gətirmərəm. Gəncənin bir çox dövlət tədbirlərində elə mən iştirak edirəm. Sənətçilərdən kimsə bölgə adları götürürlərsə, əcəb edirlər, mən nə deyə bilərəm ki. Ürəyi istəyib, əcəb edib özünə soyad götürüb. İnsan azaddır. Mən hər kəsə özünə görə hörmət edirəm. İndi kim nə, necə edib, bu onun şəxsi işidir”.

Ordubad rayonunun Behrudi kəndinin adını özünə təxəllüs seçən Rüstəm Behrudi deputatın fikirlərini kəskin tənqid etdi:

“Fazil Mustafa öz işi ilə məşğul olsa yaxşı olar. Mən öz kəndimizin adını özümə təxəllüs götürmüşəm. Bunun nəyi pisdir ki? Dünyanın harasında kitablarım, şeirlərim çap olunanda Behrud təxəllüsüm qeyd olunur. Fazil Mustafa çox ağıllı və savadlı adamdır. Sadəcə, belə məsələlərə müdaxilə etməsi düzgün deyil. Yəni bu işi daha çox ədəbiyyatçıların öhdəsinə buraxsalar yaxşı olar. Əgər danışmağa söhbət yoxdursa... Azərbaycanın o qədər problemləri var ki, getsin o işlərlə məşğul olsun. Biz indi imza götürəndə ondan icazə almalıyıq ki, özümüzə filan təxəllüsü götürürük? Mən bunu anlaya bilmirəm. Hesab edirəm ki, onun yanaşması həm pis, həm də yaxşı mənada düzgün deyil”.

**Jurnalist Azər Qaramanlı isə deputatın sözləri ilə razı olduğunu qeyd etdi:**

“Mən Fazil bəyə haqq verirəm. 15 ildir ki, mən Qaramanlı imzasını daşıyıram. Amma o dedi, düşünürəm ki, mən indi bu təxəllüsü götürməzdim. Ona görə ki, ən azından bayağılıq yaranır, həddindən artıq şişirtmələr ortalığa çıxır. Yəni mahiyyətlə keyfiyyət çox hallarda üst-üstə düşmür. Bəzi adamlar özlərinə gurultulu təxəllüslər götürməyə çalışırlar. İndiki halımda Qaramanlı imzasından imtina etmək istəyərdim, amma ortada bir tarix var və o tarixdən keçməyim bir qədər çətindir. Hesab edirəm ki, kimsə hansısa bölgə adının arxasında gizlənməməli, olduğu kimi görünməlidir”.

**Olayın əsas səbəbkarı, müğənni Şəbnəm Əsədova (Tovuzlu) isə ölkə.az-a açıqlamasında qeyd edib ki, davranışlarında heç də bölgənin adına ləkə gətirəcək hərəkət yoxdur:**

“Şou-biznesdə olanların çoxundan yaxşı abır-həyamız var. Sadəcə, gözləri götürmür deyə, dışlamaq istəyirlər. O da alınmır. Şükür Allaha, ailəm, uşağım öz yerindədir. Mənimlə rəqabət aparanlar sonda özləri uduzurlar”.

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 93 (6707) 3 may 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Sülh təşəbbüsləri böhranda - diplomatlar öz yerini hərbçilərə verir

## Qarabağ konfliktinin dinc yolla həlli düyünə düşüb; rusiyalı tanınmış politoloq: "Böyük müharibəyə görə məsuliyyət Minsk Qrupunun üzərində qalacaq..."

**Dağlıq Qarabağ danışıqlarında bir ilə yaxındır hökm sürən durğunluğu aprelin 28-də Moskvada keçirilmiş üç ölkə xarici işlər nazirlərinin görüşü də aradan qaldıra bilmədi. Həmin görüşdən sonra Azərbaycan və Ermənistan prezidentlərinin növbəti təkbətək təmasını təşkil eləmək üçün zəmin yarana biləcəyi barədə ümidlər də puça çıxdı.**





Bu, o deməkdir ki, Moskva görüşündə münaqişə tərəflərinin mövqeləri dəyişməz, həmişəki və ənənəvi ziddiyyətli məqamlar isə yerində qalıb. Bu, həmçinin o anlama gəlir ki, vasitəçi dövlətlər, ələlxüsus da Rusiya konfliktin həllində hər hansı yeni təklifə, yanaşmaya, ideyaya malik deyil. Yaxud ən azından belə bir həvəsdə görünmürlər.

"Azərbaycan və Ermənistan prezidentlərinin görüşü ilə bağlı heç bir məlumat yoxdur". Bu barədə APA-ya açıqlamasında ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Riçard Hoqland bildirib. Diplomat qeyd edib ki, həmsədrlər prezidentlərin görüşü üçün nəzərdə tutulmuş hər hansı tarix barədə məlumata malik deyillər.

Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskva görüşünə də münasibət bildirən R. Hoqland aprelin 28-də baş tutmuş görüşün Rusiya xarici işlər nazirinin təşəbbüsü ilə keçirildiyini deyib və görüşün nəticələrinə dair Rusiya XİN-in bəyanat yaydığını diqqətə çatdırıb.

*****

Bəs bundan sonra nə gözlənilir? Sülh anlaşması yolunda təmaslar bitdimi? Diplomatları hərbçilərmi əvəzləyəcək?

"2016-cı il aprelin əvvəlində Qarabağ zonasında situasiya yerindın tərpəndi, necə deyərlər, status-kvo üzərindən plomb götürüldü. Və artıq onu geriyə döndərmək olmaz". Musavat.com-un məlumatına görə, bu sözləri **rusiyalı tanınmış politoloq Qriqori Trofimçuk** vesti.az saytına müsahibəsində deyib.

**Politoloqun sözlərinə görə, aprel əməliyyatları zamanı Bakı açıq-aşkar buna hesab götürmüşdü ki, öz hərbi gücünün nümayişindən sonra prosesi məhz o diktə edəcək - hansı proses ki, çox sürətlə lazımi istiqamətdə gedəcək və Bakı torpaqlarını hissə-hissə azad edəcək:** "Özü də ATƏT-in Minsk Qrupu hələ də bu suala cavab verməyib ki, o vaxt hərbi əməliyyatları ilk olaraq hansı tərəf başlayıb. Ona görə də gələcək hadisələrə, o cümlədən böyük müharibəyə görə məsuliyyət Minsk Qrupunun üzərinə düşür. Ancaq indi, 2017-ci ilin mayında da heç nə baş verməyib. Yəni aprel müharibəsi zamanı Azərbaycan ordusunun əlinə dar bir torpaq zolağının keçməsini nəzərə almasaq, situasiya harada idisə, orada da qalıb. Danışıqlar prosesi apreldək olan rejimə qayıdıb. Eyni zamanda sülh danışıqları əhəmiyyətli şəkildə öz intensivliyini itirib və daha şablon, açıq ölü formata keçib. Odur ki, Bakı üçün indi belə bir sual bütün vücudu ilə qarşıda durur: bundan sonra nə etməli?"

**Analitikə görə, çox şey indi məhz bu qərardan asılıdır.** "Bakı sonsuz şəkildə qeyri-müəyyən vəziyyətdə qalmağı özünə rəva bilə bilməz. Ona görə ki, o halda bu daxili duruma da təsir edə, əhalinin vətənpərvər ovqatı həmişəlik "yana" bilər", - deyə rusiyalı politoloq əlavə edib.

Bu, əlbəttə ki, rusiyalı analitikin fikirləridir. Onun dediklərindən də bir daha aydın olur ki, 4 günlük aprel müharibəsindən sonra Qarabağ konfliktinin həllinə yönəlik diplomatik səylər nəinki artmayıb, əksinə, azalıb. Bu da yeni və irimiqyaslı hərbi toqquşma ehtimalının artması anlamına gəlir.

*****

**"Hazırda ən böyük narahatlıq doğuran məsələ təmasların qırılmasıdır". Bu sözləri axar. az -a açıqlamasında politoloq Tofiq Abbasov deyib. Politoloq bildirib ki, rəsmi Bakı danışıqların davamında maraqlıdır və bu, heç kimə sirr deyil:** "İrəvan isə çalışır ki, siyasi nizamasalma prosesini pozsun və status-kvo olduğu kimi qalsın. Ancaq Moskva İrəvanın bu istəyini neytrallaşdırmaqla Ermənistanın danışıqlardan yayınmasının qarşısını alır".

**Politoloq bildirib ki, qarşıda prezidentlərin görüşü üçün heç bir zəmin yoxdur:** "Bu zəmin ona görə formalaşmır ki, hələ danışıqların tərtib olunmuş gündəliyi mövcud deyil. Eləcə də əgər sülh prosesindən söhbət gedirsə, heç olmasa, onun hansısa bir sənədi müzakirə olunmalıdır. Yox, əgər bunların heç biri yoxdursa, deməli, danışıqlar hardasa ünvansız xarakter daşıyır. Rusiya isə bundan çəkinir. Çünki Rusiya bir tərəfdən münaqişəyə coğrafi baxımdan yaxındır, digər tərəfdən isə hər iki dövlət onun yaxın tərəfdaşıdır. Ona görə də Moskva məsuliyyəti anlayaraq bu prosesə qatılıb və təkidlə çıxış edir ki, İrəvan saymamazlığa yol verməsin. Çünki Bakı ötən ilin aprelində buna görə İrəvanın dərsini verib".

**Politoloqun müşahidəsinə görə, Rusiya Azərbaycanın yenə Ermənistana dərs verəcəyindən qorxur:** "Azərbaycan öz sözünü deyib və ərazi məsələsi, ümumiyyətlə, danışıqlar predmeti ola bilməz. Bu və digər məsələlər ətrafında ola bilsin danışıqlar gedir, ancaq gündəlik formalaşmır. Ona görə də Rusiya, ABŞ və Fransa Ermənistanın ən yaxın zamanda, 2018-ci ilə qədər bu məsələyə aydınlıq gətirəcəyini gözləyir. İrəvan öz mövqeyini açıqladıqdan sonra artıq Azərbaycan lazımi tədbirləri görəcək".

*****

Qarabağa dair danışıqlar prosesində durğunluq fonunda isə Azərbaycan-Türkiyə taktiki təlimləri davam edir. Hərbi amilin regiondakı mövcud şərtlər daxilində günbəgün artan önəmi nəzərə alınarsa, bu kimi manevrlərin əhəmiyyəti xüsusilə qabarıq görünər. Hər necə olmasa, ötən ilin aprelindən hərbi güc faktoru Dağlıq Qarabağ məsələsində bir az da önə keçib. Bunu siyasi ekspertlər də qeyd etməkdədirlər. Azərbaycanın öz əsas və təbii müttəfiqi Türkiyə ilə hərbi əməkdaşlığı getdikcə genişləndirməsi məntiqli olmaqla yanaşı, şübhəsiz ki, həm də ən yüksək səviyyəyə çatmağa indekslənib.

**"Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq hər keçən gün genişlənir və bir az da yeni mahiyyət kəsb edir. İndiyə qədər Azərbaycan və Türkiyə hərbi hava qüvvələri arasında keçirilən birgə təlimlər hava qüvvələri sahəsində əməkdaşlığın bir forması idi. Ancaq bu gün Azərbaycan və Türkiyə hərbi əməkdaşlığın yeni bir sahəsinə qədəm qoyur". Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə təlimlərini dəyərləndirən sabiq dövlət müşaviri Qabil Hüseynli belə hesab edir.**

Onun fikrincə, bu, indiyədək Türkiyə ilə Azərbaycan arasında misli görünməmiş bir təlimdir. "Hər iki ölkənin Silahlı Qüvvələrinin bir çox növlərini əhatə edən irimiqyaslı hərbi təlimlərdə hava qüvvələrinin bir hissəsi, vertolyotlar, artilleriya qüvvələri, quru qoşunlarının digər növləri, raket, daxili qoşunlar və jandarma qoşunları iştirak edəcək. Bu təlimlər birgə əməliyyatların işlənib hazırlanması, yeri gəldikdə düşmənin hər hansı bir təcavüzünü dəf etmək üçün həm ştat qərargah təlimlərini özündə ehtiva edir, həm də konkret əsgər və döyüş texnikasının iştirakı ilə keçirilir. Bu təlimlər ətrafımızda olan müəyyən qüvvələrə yönəlmiş çox ciddi mesajdır. Birinci növbədə Ermənistana mesajdır ki, Azərbaycan tək deyil, yəni bir çox dövlətlərdən hərbi dəstək ala bilər, xüsusilə də Türkiyədən. Türkiyənin bu təlimlərin keçirilməsində böyük hüququ var. Çünki 1921-ci ilin mayında Rusiya ilə imzalanmış Qars müqaviləsinə görə, Türkiyə həm də Naxçıvanın təhlükəsizliyi üçün bir zəmanətçi rolunu oynayır. Bütün bunlar onu göstərir ki, Azərbaycanı Türkiyə ilə həm də hərbi sahədə imzalanmış müqavilələr birləşdirir", - deyə sabiq dövlət müşaviri qeyd edib.

**Politoloq onu da bildirib ki, hərbi təlimlərdən sonra Türkiyədə hazırlanmış yeni silah növlərinin baxışı da olacaq:** "Azərbaycan Türkiyədən silah alır və getdikcə alınan silahların çeşidi artmaqdadır. Bir sözlə, həyata keçirilən hərbi təlimlər Azərbaycanın müdafiə qüdrətinin artırılması baxımından çox böyük əhəmiyyətə malikdir və düşməni daim qorxuda saxlayır".

*****

**Düşməni müharibə qorxusu altında saxlamaq sözsüz ki, Azərbaycanın ən azından psixoloji üstünlüyüdür və bu, davam etməlidir. Çünki belə bir üstünlük məqbul və əlverişli şərtlər yetişən kimi ordumuzun növbəti hərbi uğuruna daha tez transfer ola bilər. Azərbaycan dinc danışıqlardan qaçmır. Ancaq belə görünür ki, hərbi güc işə düşməyincə, işğalçı tərəf konstruktiv mövqeyə gəlməyəcək.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Həmid Herisçi ittihamlara cavab verdi

## "Rövşən Əliyev, sən Azərbaycana gələ bilmirsən, amma Duqin gəlir"

**Çexiyanın paytaxtı Praqada yaşayan jurnalist Rövşən Əliyev modern.az-a verdiyi müsahibədə publisist-yazar Həmid Herisçi barədə də danışıb.**

R.Əliyev tanınmış yazarı hazırda ölkəmizdə səfərdə olan məşhur rusiyalı ictimai-siyasi xadim, filosof və politoloq, Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksandr Duqin kimi danışmaqda suçlayıb. O deyib: "Həmid Herisçinin Avropa Birliyi haqda hədyanları, Avrasiya İttifaqı haqda rus şovinisti Aleksandr Duqin kimi danışması gözümə dəydi".

**Bununla bağlı publisist-yazarın mövqeyini aldıq. H.Herisçi ittihamlara belə cavab verdi:** "Tarixin təkəri elə bil keçmişə, SSRİ-nin süqut dövrünə qayıdıb. Bu gün arxivə göndərilən növbəti SSRİ bilirsinizmi nədir? Avropa İttifaqının özü!

O vaxt biz suverenitetlərin paradını yaşadıq, indi bu yoluxucu xəstəlik Avropaya da sıçradı. Brexitdən sonrakı Britaniya o vaxtkı Litvanı, Britaniya baş naziri Tereza Mey isə mənə o vaxtkı Litva lideri Landsberqi xatırladır. Bu gün barəmdə hədyanlar yağdıran Rövşən Əliyev isə o zamanlar SSRİ-ni qorumağa çağıran deputat Alksnisi, Saji Umalotovanı yada salır. Bircə fərqlə o zamankı SSRİ-nin yerində indi Avropa Birliyinin özüdür.

Tarixin təkəri vaxtaşırı bax belə geriyə qayıdır. İndi geriyəsayım dövrüdür".

**H.Herisçi müsahibədəki ruhun "Yeni Müsavat" əleyhinə olduğunu da qeyd etdi:** "Müsahibə "Yeni Müsavat"ın əleyhinədir. Hədəfdə olanlardan biri də mənəm. Amma inanmıram ki, Rövşən "sərrast atıcıdır". Müsahibədə, fikir verin, çoxsaylı adlar çəkilib. Mətbuatımızın dünəni və bu günündə fəal olan qələm sahiblərinin demək olar hamısının adı çəkilib. Amma nədən Həmid Herisçinin adı yuxarıdadır? Bunlar anlayıblar ki, müsahibəni kimsə oxumayacaq. Məhz piar üçün adımı yuxarıda çəkiblər, yəni müsahibənin tirajlı olması üçün. Nə üçün o, Həmid Herisçi və Aleksandr Duqini aşağılamalıdır? Məgər Rövşən müəllim Duqini oxuyub? Duqin Rusiyada 50-dən çox ciddi əsərin, monoqrafiyanın müəllifidir, o poliqlotdur, 11 dildə sərbəst danışır. Özü də Duqin indiki fikirlərinə təkbaşına deyil, həmyerlimiz Heydər Camalın vasitəsilə yetişib. Mən də əslində Duqinin deyil, ustadım Heydər Camalın fikirlərini təkrarlayıram. Rövşəndən xahiş edirəm, danışdığı mövzulara səthi deyil, dərindən yanaşsın.

Başqa bir məsələ - nə vaxtdan Avrasiya İttifaqının adı mətbuatda yasaqlanıb? Bəli, Rövşən kimi liberal qlobalistlər bəzi mövzuları, o cümlədən Avrasiya konusunu bir növ qanundankənar elan ediblər. Niyə? Məgər bu, məsələyə demokratik yanaşmadır? İkincisi, Rövşən kimilərin "azadlıq" brendindən istifadəsi, bu brendi inhisara alması qəbuledilməzdir. Bu cür "azadlıqpərəstlər" heç vaxt azad qələm sahibi olmayıblar. Həmişə maliyyələşdiriliblər. Rövşən özünü tərifləməsin, o hansı ciddi əsərin, məqalənin müəllifidir axı? Axtarın bütün interneti. Dişə vurulası bir əsərini tapa bilməzsiz. Onun haqqı yoxdur ki, Rauf Arifoğlu haqqında o cür hədyanlar danışsın. Rauf Arifoğlu mətbuatımızın flaqmanlarından biridir. Neçə illərdir "Yeni Müsavat" qəzetini maliyyə axını olmadan bu günə qədər qoruyub. Sizin o donor təşkilatlardan "Yeni Müsavat" heç vaxt maliyyə almayıb. Sizlər ancaq tarixi saxtalaşdırmaqla məşğulsuz.

Rövşən kimilər dünəndirlər. Rauf Arifoğlu jurnalistikası isə daha real, daha müstəqil, daha həqiqidir. Bu gün Duqin dövrü gəlib. O hazırda Bakıdadır, sən isə Avropada. Sən Azərbaycana gələ bilmirsən, amma Duqin gəlir. Onun kimi dühanın ölkəmizə gəlişini alqışlayıram. Mən özümə və qəzetimizə atılan qara ələkləri qəbul edib, onlarla duelə çıxmağa hazıram".


Həmid Herisçi


Rövşən Əliyev

❑ Cavanşir ABBASLI

# Jurnalistlərin əsas yolunu bağladılar - etirazlar var

## Sakinlər qəfil üzləşdikləri qəliz vəziyyətdən çıxış yolu axtarırlar; əraziyə təcili yardım maşını belə girə bilməyəcək, əgər...

**Xəbər verdiyimiz kimi, Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunları ilə əlaqədar bir sıra mərkəzi küçələrdə nəqliyyatın hərəkəti məhdudlaşdırılıb. Belə ki, xüsusi sarı zolaq çəkilib ki, bu zolağın daxilində yalnız oyunlar üçün nəzərdə tutulan nəqliyyat vasitələri hərəkət edə biləcək. Digər nəqliyyat vasitələri zolağa daxil olarsa, 40 manat cərimələnəcək.**

Yollarda bu kimi maneələrin yaradılması bir sıra obyektlərə, yaşayış yerlərinə daxil olmağa da maneələr yaradıb. Həmin yaşayış yerlərindən biri də Bibiheybət qəsəbəsində jurnalistlər üçün tikilmiş çoxmərtəbəli binadır.

Ərazidə olduğumuz zaman müşahidə etdik ki, 156 jurnalist ailəsinin yaşadığı binaya gedən avtomobil yolu beton laylar vasitəsilə qapadılıb. Nəticə olaraq binanın həyətinə avtomobil vasitəsilə daxil olmaq istəyənlər, alternativ yoldan istifadə etməklə xeyli məsafə qət etməlidirlər. Ərazidən keçən magistral yolda isə kauçuk laylar vasitəsilə xüsusi zolaq yaradılıb ki, burda da, qeyd etdiyimiz kimi, yalnız oyunlarla əlaqəli nəqliyyat vasitələri hərəkət edə bilər.

**Mövcud durumdan jurnalistlər narazıdırlar. Onlar bildirirlər ki, yolu bağlamadan öncə heç olmasa, bina sakinləri xəbərdar edilməli idilər. Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan sözügedən binanın sakini "Qarabağ Qaziləri" İctimai Birliyinin sədri Rey Kərimoğlu dedi ki, onların hər zaman yol problemi olub:** "Əslində bizim binadan avtomobillə çıxışımız üçün əvvəldən ciddi problem olub. Binadan sola, yəni şəhərə tərəf dönmək qadağası var. Şəhərə getmə üçün ancaq sağa dönüb "20-ci sahə"nin içi ilə kələ-kötür yoldan keçib, şəhərə gedə bilirdik. Bu da həm vaxt itkisi, həm də narahatçılıq yaradır. İndi isə ümumiyyətlə, binadan əsas yola çıxışı beton bloklarla bağlayıblar. Yalnız təzə binanın həyətindən keçməklə, yenə də 20-ci sahənin içərisindən keçib getməliyik. O yol isə çox bərbaddır. Həm də daima yolun sağ və ya solunda maşınlar dayandığından keçib getmək müşkülə çevrilir. Ümumiyyətlə, bizim binanın - istər avtomobillə, istərsə piyada üçün - şəhərə çıxışı ilə bağlı ciddi ölçü götürülməlidir. Sakinlər avtobus dayanacağına getmək üçün bir kilometr yol qət edirlər. Dükan-bazar yoxdur deyə üç ildir əziyyət çəkirik. Binamızın altında yer var idi, heç olmasa, gündəlik tələbat malları satışı üçün mağaza yaradılmalı idi. Amma olmadı".

**"Həftə içi" qəzetinin jurnalisti Vüsal Tağıbəyli də hesab edir ki, beton laylar vasitəsilə yolun bağlanılması doğru deyil:** "Əslində yolu betonla bağlamaq olmaz, başqa nələrdənsə istifadə etməli idilər. Axı burada 150 ailə yaşayır ki, onların da çoxunun maşını var. Bəs bu insanlar evlərinə necə gəlib-getsinlər? Bəlkə təcili yardım maşını gələsi oldu, betonu necə qaldırıb keçəcəklər həyətə? Avropa ölkələrində beton laylardan harada gəldi istifadə etmirlər. Bu üsuldan İraq, Suriya və sair kimi Şərq ölkələrində daha çox istifadə edilir ki, bu da başlıca olaraq hərbi xarakter daşıyır. Bundan başqa, yol birmənalı şəkildə bağlı olmayacaq. İndiki halda magistral yol açıqdır, maşınlar gedir. Amma həyətə giriş dünəndən bağlıdır. Məncə, binanın həyətinə alternativ yol açılmalıdır. Bu, sürücülük məktəbinin təlim meydançası tərəfdən ola bilər. Amma problem budur ki, dünən əksər adamlar maşınlarını sürüb gediblər iş-güc dalınca, bir qədər sonra gəlib yolu beton laylarla bağlayıblar. Axşam sakinlər evinə qayıdır, yol bağlıdır. Yaxşı bəs nə etsinlər? Bütün hallarda bu yolu bina sakinlərinə xəbərdarlıq etməklə bağlamaq lazım idi".

**Jurnalist Nicat Dağlar isə bildirdi ki, binanın qarşısından keçən yolda tənzimləyici quraşdırılmalıdır:** "Dünəndən etibarən binanın həyətinə avtomobil vasitəsilə giriş-çıxış məhdudlaşdırılıb. Alternativ yol müəyyənləşdiriblər, onun vasitəsilə binaya gəlib çıxırıq. Ancaq sözsüz ki, uzaq olsun, hər hansı bir xoşagəlməz hal baş verərsə, təcili yardımın və ya digər bu kimi maşının binanın həyətinə daxil olması problem olar. Təbii ki, bu, müvəqqətidir. Ümumilikdə isə binadan çıxışda problem mövcuddur. Belə ki, magistral yolda Sədərək Ticarət Mərkəzi istiqamətinə hərəkət edən avtomobillər olduqca sürətlə gedir. Xeyli vaxt lazım olur ki, binanın həyətindən yola çıxasan. Hesab edirəm ki, orada hər hansı bir hərəkəti tənzimləyən işarələr qoyulmalıdır. Çünki artıq yaxın zamanlarda jurnalistlər üçün nəzərdə tutulan ikinci çoxmərtəbəli bina da istifadəyə veriləcək və nəticə olaraq sakinlərin sayı iki dəfədən də çox artacaq. Məncə, ora artıq işıqfor da qoymaq olar. Buna ehtiyac yaranıb. Ərazidə bir neçə dəfə qəza halları yaşanıb. Düşünürəm ki, əlaqədar qurumlar deyilən əraziyə diqqət ayıracaqlar. İndi olmasa da, oyunlardan sonra bu məsələ tənzimlənməlidir. İkinci bina da istifadəyə verildikdən sonra bu, olduqca aktual məsələyə çevriləcək".








❑ Əli RAİS

YENİ MÜSAVAT
N 93 (6707) 3 may 2017

# Azərbaycanda şiş xəstəlikləri artır - həkimlərdən SOS xəbərdarlığı

**Ölkəmizdə onkoloji xəstələrin sayı artıb. Nəinki ölkəmizdə, demək olar ki, dünyada onkoloji xəstələr getdikcə çoxalır. Bugünlərdə Azərbaycanda rəsmi qeydiyyatda olan onkoloji xəstələrin statistikası açıqlanıb.**



**Adil Qeybulla:** "Hər bir insanda xərçəng əleyhinə müdafiə sistemi var"



**Seyfəddin Əsəd:** "Səbəb həm də müxtəlif kimyəvi tərkibli dərmanlardır"

Səhiyyə Nazirliyinin baş onkoloqu, Milli Onkologiya Mərkəzinin baş həkimi Azad Kərimli "Trend"ə deyib ki, 2016-cı ilin məlumatına görə, ölkədə 43 927 nəfər onkoloji xəstə qeydiyyatdadır. 2015-ci ildə isə Azərbaycanda belə xəstələrin sayı 40 653 olub. Onun sözlərinə görə, 2015-ci ildə 10 183 nəfərə, 2016-cı ildə isə 10 807 nəfərə ilk onkoloji diaqnoz qoyularaq qeydiyyata götürülüb. Baş onkoloq əlavə edib ki, 2013-cü ildən indiyədək Azərbaycanda 620 uşaq onkoloji xəstəliyə görə qeydiyyata götürülüb.

Ötən il ərzində 121 uşaq ilk dəfə olaraq onkoloji diaqnozla qeydiyyata alınıb. A.Kərimli əlavə edib ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da ən çox təsadüf olunan onkoloji xəstəlik traxeya-bronx-ağciyər xərçəngidir. Bu xəstəlinə ən çox kişilərdə rast gəlinir. Prostat vəzin xərçəngi də kişilər arasında rast gəlinən onkoloji xəstəliklər sırasında ilk yerləri tutur. Qadınlar arasında isə daha çox süd vəzisi və uşaqlıq boynu xərçəngi müşahidə olunur.

**A.Kərimli bildirib ki, 2015-ci ildə ilk dəfə 1693 nəfər qadına süd vəzisi xərçəngi diaqnozu qoyulubsa, 2016-cı ildə bu rəqəm 1770 nəfər olub. Baş həkim qeyd edib ki, 2015-ci ildə profilaktik baxış zamanı 506, 2016-cı ildə 522 nəfərdə onkoloji xəstəliklər aşkarlanıb. Lakin onkoloq onkoloji xəstələrin ümumi sayını əhalisi getdikcə artan Azərbaycan üçün o qədər də böyük rəqəm saymayıb. O, eyni zamanda Azərbaycandakı onkoloji xəstələrin sayının digər ölkələrlə müqayisədə aşağı olduğunu söyləyib:** "43 927 rəqəmi ilk baxışdan böyük görünə bilər. Amma demoqrafik göstəriciləri nəzərə almaq lazımdır. Artıq Azərbaycanda əhalinin sayı 10 milyona yaxınlaşır. Əhali artdıqca isə yalnız onkoloji deyil, digər xəstəliklərin göstəriciləri üzrə də artımın olması gözləniləndir".

Maraqlıdır, Azərbaycanda onkoloji xəstəliklər niyə artır? Bu nə ilə bağlıdır, hava, qida, yoxsa tamamilə başqa səbəblər var?

**Tibb elmləri doktoru, professor Adil Qeybulla xərçəng xəstəliyi yaradan səbəblərin çoxsaylı olduğunu dedi:** "Bu xəstəlik bütün dünyada artmaqdadır. Əslində bu bütün dünya əhalisinin çoxalması, ekoloji problemlər, qidalanma, insanların həyat tərzlərinin, adətlərinin dəyişməsi və s. ilə bağlıdır. Ona görə də bu məsələyə qlobal bir problem kimi yanaşılmalıdır. Əlbəttə ki, hər bir ölkə özünün təhlükəsizlik və genofondun qorunması məqsədilə müvafiq addımlar atmalıdır. Məsələ budur ki, bu gün bütün dünyada konservləşmiş qidaların, fast-foodların istifadəsi insanların çəkisinin artırır. Həddən artıq çəkiyə malik olmaq isə ürək üçün böyük riskdir. Həmçinin maddələr mübadiləsi pozulur. Hər bir insanda xərçəng əleyhinə müdafiə sistemi var. Kökəlmə nəticəsində bu sistem normal çalışmır. Bundan başqa, insanlar az hərəkətlilik durumundadırlar. Çox qidalanma, keyfiyyətsiz qidalanma, qidalarda, fast-foodlarda həddən artıq xüsusi konseregen maddələrin olması, bundan başqa, insanların az hərəkət etməsi bu xəstəliyin əsasını təşkil edir. Zərərli vərdişlər, alkoqollu içkilər, siqaret bu gün dünyada artan statistikanı göstərir. Təəssüflər olsun ki, qadınlar arasında siqaret çəkən və alkoqollu içki qəbul edənlərin sayı Azərbaycanda da, dünyada da artmaqdadır. Təbii ki, bu cür həyat tərzi, qidalanma rejimi vəziyyəti bu həddə çatdırmağa kömək edir. Xərçəng xəstəliyinə bir səbəb də avtomobillərdəki tullantılardır. Bakıda avtomobillər həddindən artıq çoxdur. Bu avtomobil tullantıları havada xərçəng gətirən maddələri toplayır. Bu cür səbəblər həddən artıq çoxdur. Bunları sadalamaqla qurtarmaq mümkün deyil. İdmanla məşğul olmaq, qidalanmaya fikir verməK, çox hərəkət etmək, az yemək , bir sözlə, sağlam həyat tərzinə keçmək onkoloji xəstələrin sayının azalmasına səbəb ola bilər".

**Təbii üsullarla müalicə həkimi Seyfəddin Əsəd isə bu xəstəliyin artmasına səbəb kimi şüalı müayinə aparatları və kimyəvi tərkibli dərmanları göstərir:** "Xərçəng xəstəliyinin faizi bütün dünyada artır. Təbii ki, burada düzgün qidalanmama, az hərəkətlilik, sosial şəbəkələrin geniş yayılması və insanların şüalanması rol oynayır. Uşaqlar var ki, 18-20 saat qulaqcıqlar qulağında, görüntülər, oyunlar da telefonunda olur. Eyni zamanda təbii ki, ətraf mühitin radiasiyası, xəstələrin müayinəsi də təsir edir. Vaxt var idi rentgen bizim ən qorxduğumuz müayinə idi. Bu gün MRT və digər güclü şüası olan müayinə aparatları var. Təbii ki, insanlar məcbur olanda bu cür şüalı müayinələrdən keçməlidir. İnsanlar var ki, 2-3 ayda bir dəfə rentgendən və bu kimi digər şüalı müayinələrdən keçir və xərçəng xəstəliyinə ildırım sürəti ilə yaxınlaşır. Eyni zamanda buna səbəb olaraq müxtəlif kimyəvi tərkibli dərmanları da göstərmək olar. Görürük ki, bir dərmanı 40-50 ildən sonra yığışdırırlar. Deyirlər ki, bu dərman orqanizm üçün zərərli və xərçəng törətməyə meyllidir. Təbii ki, 50 ildən sonra artıq iş işdən keçmiş olur. Dünyada və Azərbaycanda onkoloji xəstələrin müayinəsi çox sürətlə artır. Əvvəllər bu aparatlar yox idi. İndi aparatlar vasitəsilə insanın harasında xərçəng varsa, onu göstərir. Əvvəllər bu mümkün olmurdu. Ona görə də bu gün insanlar özlərindən şübhələnəndə profilaktik müayinəyə gedirlər. Müayinələr artdıqca da bu cür xəstələrin sayı da bilinir. Ancaq təbii ki, xərçəng xəstəliyinin həm müalicəsində, həm də müayinəsində inqilabi yeniliklər var. Xərçəng xəstəliklərinin elə yerləşməsi var ki, onların peyvəndi var. Bir daha qeyd edim ki, ətraf mühitin radiasiyası, havasızlıq, düzgün qidalanmamaq, qidalarda süni qatqıların çoxluğu xərçəng xəstəliyinin faiz etibarı ilə artmasına gətirib çıxarır".

❑ **Günel MANAFLI**

# Lətifə personajları bol ölkədə lift qəzası



**Samir SARI**

**Son günlərdə ölkədə elə hadisələr baş verdi ki, qədirbilən camaatımız yenə də medianı, jurnalistləri söyüb-biabır etmək kampaniyasına qoşuldu.**

Əslində bu kampaniya, oxumuş adamların sözü olmasın, permanent xarakter daşıyır, yəni heç bitmir. Hər gün orda-burda, sosial şəbəkələrdə jurnalistləri pisləyənlər, yamanlayanlar tapılır.

Adam arada quşqulanır ki, deyəsən, bu ölkədə nə qədər neqativ hallar, qüsurlar var, hamısının baiskarı jurnalistlərdir. Sonra fikir verirsən ki, yox, heç o biri sənət və peşələrin adamları da qıraqda qalmırlar, onlar da söyülürlər. Hətta dərindən araşdıranda görürsən ki, jurnalistləri, yol polislərini, həkimləri, müəllimləri, məmurları söyənlərin özü də çox söyülən peşələrdən birinin sahibidir.

Xüləs, mətləbdən uzaqlaşmayaq. Bu dəfə jurnalistləri birinci dəfə ona görə pislədilər ki, hansısa həmkarımız həbsxanada ölmüş bloqçuya dair informasiyaya belə bir başlıq qoyubmuş: "Blogger Mehman həbsxanada intihar etdi".

Bu başlıq o qədər sensasion olub ki, oxucular xəbəri saytda açıb oxumamış artıq söhbətin blogger Mehman Hüseynovdan getdiyini düşünüblər, həyəcanlananlar olub.

Ancaq bu, başqa Mehmanmış. O da müxalifətçidir, fəaldır, bloqçudur, amma başqasıdır, soyadı da fərqlidir.

Söz yox, başlığı belə qoyan həmkarımız bunu qəsdən edib, Mehman Hüseynovun adının daha populyar olmasından istifadə edərək, ajiotaj yaratmaq istəyib.

İntihar edənin Mehman Hüseynov olmadığı bilinincə, "Allaha şükür, bu, o Mehman deyil, başqasıdır" deyənlər olub. İndi bu düzgündürmü? Hər halda, intihar edənin kim olmasından asılı olmayaraq, bu, kədərli xəbərdir.

Jurnalistlərə qarşı qınaqlara, töhmət-təhnizə səbəb olan ikinci olay "20 Yanvar" metro stansiyası yaxınlığında bir binada baş verən lift qəzasıydı.Əslində buna qəza demək olardı da, olmazdı da. Hadisəyə ona görə qəza demək olardı ki, işə FHN qarışıb, xilasetmə işləri aparılıb. Eyni zamanda bu elə bir vaqiədir ki, ölən və yaralananlar olmayıb, eləcə babat qorxanlar olub, bu da elə də ciddi qəza sayılmaz.

Hadisə isə bundan ibarətdir. Toya gələn rayon adamları bəyin yeddinci mərtəbədəki evinə qalxmaq istəyiblər, liftin düyməsini basıblar. Lift gəlib, qonaqlar liftin içini geniş görüblər, həm də onun ikinci dəfə gəlməsini gözləməyiblər, 11 nəfərin hamısı liftə minib. Lift ləbələb dolub. Ancaq yazıq liftin gücü 600 kiloqram qaldırmağa çatdığından təxminən 1 ton yükü *(şəhər adamlarından fərqli olaraq rayon adamları o qədər də nərmənazik olmurlar, bilirsiniz)* qaldıra bilməyib, yuxarı qalxmaq yerinə zirzəmiyə enib. Bir futbol komandasının əsas heyət oyunçuları qədər olan lift sakinləri təbii ki, qorxublar. Xoşbəxtlikdən, liftə minməyən qonaqlardan *(bunları da ehtiyat oyunçular sayaq)* bir neçəsi qəzadan duyuq düşüb, FHN-ə müraciət ediblər.

Göründüyü kimi, bu o qədər tragik gadisə deyil, bir az da baməzə hadisədir. Amma hadisə barədə xəbər tutan qonşuların hay-küyü, qonaqların həyəcanı, FHN-in hadisə yerində səylə çalışması müşahidəçilərdə yanlış təəssürat yaradıb, kimlərsə çağırıb media orqanlarına deyiblər ki, qəza baş verib, ölənlər və yaralananlar var.

Sonradan hadisə iştirakçıları bu qəza və itkilər barədə saytlardan oxuyublar və təzədən həyəcanlanıblar. Adama deyərlər, rəhmətliyin nəvələri, niyə qorxursunuz, həyəcanlanırsınız ki? Liftə11 nəfər minmişdiniz, 11-niz də sağ-salamat çıxmısız, hələ gedib toyda oynamısınız da. Qəzaya düşəndə qorxmadınız, o barədə yanlış xəbər oxuyanda qorxdunuz?

Bəy atasından sonra jurnalisti danlamaq estafetini binanın komendantı götürüb. O, daha pis olub, FHN-in xilasedicilərini, toy evinin qonaqlarını yola salandan, qonşuları sakitləşdirəndən sonra saytlarda qəza xəbərini oxuyub və sarsılıb, şoka düşüb - özü də düz zirzəmisinə. Birtəhər liftlə şokdan çıxarıb, yuxarı qaldırıblar.

Ən pis sarsıntını bu hadisə barədə mətbuata xəbər ötürən qonşular yaşayıb. Ölənlər və xəsarət alanların olduğu barədə xəbər verən qonşular eyni xəbəri saytlarda oxuyanda çox hiddətləniblər: "Axx, bu yaramaz jurnalistlər, faktları dəqiqləşdirməmiş yazırlar".

Bax, bu bizim ölkədir, nə qədər desəniz, lətifə personajı var.

# 15 yaşlı qızını öldürən psixi xəstədir?




**15 yaşlı qızını qətlə yetirməkdə təqsirləndirilən Nəsib Cabbarovun cinayət işi üzrə məhkəmə davam edib. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Tamilla Nəsrullayevanın sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin vəkili vəsatətlə çıxış edərək müdafiə etdiyi şəxs barəsində psixoloji ekspertiza keçirilməsini istəyib: "Məhkəmədə gördünüz ki heç bir ciddi səbəb olmadan bu adam öz qızını öldürüb. Həmin vaxt onun psixi pozuntusu olub".**

Prokuror bildirib ki, Nəsib Cabbarov barəsində ekspertiza keçirilib və cinayəti törədən zaman anlaqlı vəziyyətdə olduğu ilə bağlı rəy var. Buna görə dövlət ittihamçısı vəsatətin təmin edilməməsini istəyib.

Hakimlər kollegiyası müşavirə gedib. Müşavirədən gələn kollegiya vəsatətin təmin olunduğunu bildirib.

İşin baxışına xitam verilib. Nəsib Cabbarov barəsində yenidən təkrar stasyonar psixatrik ekspertiza təyin edilib.

Qeyd edək ki, qətl keçən il iyulun 20-də Xırdalan şəhərində baş verib. Ağdam rayon sakini Aygün Cabbarova kəsilmiş-deşilmiş xəsarətlə xəstəxanaya gətirilib və orada ölüb. Abşeron Rayon Polis İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni münaqişə zəminində törətməkdə şübhəli bilinən A.Cabbarovanın atası Nəsib Cabbarov tutulub. Sonradan məlum olub ki, 52 yaşlı Nəsib Cabbarov 15 yaşlı Aygün Cabbarovanın əxlaqsız hərəkətlər etməsindən şübhələnərək qısqanclıq zəminində gecə yatdığı yerdə amansızlıqla və işgəncə verərək bıçaqla qətlə yetirib.

Məhkəmə dövründə ifadə verən Nəsib Cabbarov bildirib ki, cəbhə bölgəsində aprel ayında aparılan əməliyyatlar zamanı ermənilər tərəfindən atılan qrat 50 metr yaxınlığına düşüb. Ondan sonra başının pozulduğunu deyən təqsirləndirilən şəxs qızını niyə öldürməsini bilmədiyini deyib: **"Qızım əxlaqsız deyildi. Həmişə mənim sözümə baxırdı. Onu öldürməyimi xatırlamıram".**

Ona Cinayət Məcəlləsi 120.2.4 (xüsusi amansızlıqla adam öldürmə) və120.2.9 maddəsi ilə ittiham verilib.

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

* **Diaqnozu bilinməyən ağır hallar;**
* **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
* **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
* **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
* **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
* **Sidikdə və ya spermada qan;**
* **Spermanın azalması və itməsi;**
* **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
* **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
* **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
* **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
* **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
* **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
* **Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.**
* **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək,* ***(050) 213-88-05*** *nömrəsinə,* ***d-r Vaiz Səmədova*** *zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



## Toy evindən 30 min manat oğurlandı

**Bakıda mənzildən külli miqdarda pul və qızıl oğurlanıb. Hadisə Xətai rayonu Telnov küçəsi 10, mənzil 5 ünvanında baş verib. 1967-ci il təvəllüdlü İlqar Niyazova məxsus mənzildən 7 min manat dəyərində qızıl-zinət əşyaları, 10 min dollar və 30 min manat oğurlanıb.**

Ev sahibi 34-cü polis bölməsinə müraciətində bildirib ki, hadisə aprelin 30-da saat 17:30-dan 23:00-dək olan müddətdə mənzildə heç kimin olmadığı vaxt baş verib. Ailənin toy məclisində olmasından istifadə edən naməlum şəxs və ya şəxslər qapını açaraq evə soxulub.

Qeyd edək ki, şikayətçi İ.Niyazov biznesmendir.

"Qafqazinfo" saytı zərərçəkən ailənin qız evi olduğunu və onların cinayətdə oğlan evini günahlandırdığını yazıb.



## Avtoritet "Dəli Samir"ə 11 il həbs cəzası verildi

**Qanunsuz silah saxlama və narkotik maddələrin dövriyyəsində təqsirləndirilən kriminal aləmdə "Dəli Samir" kimi tanınan Samir Aslanov və hədə-qorxu ilə tələb etmədə təqsirləndirilən Fikrət Əfəndiyevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Lent.az-ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar Mikayılovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hakimlər kollegiyasının hökmünə əsasən Samir Aslanov 11 il, Fikrət Əfəndiyev isə 10 il müddətinə azadlıqdan məhrum edilib.

Xatırladaq ki, prokuror çıxışında S. Aslanovun 13 il, F. Əfəndiyevin isə 11 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd edək ki, 2015-ci ilin martında Suraxanı Rayon Polis İdarəsinin əməkdaşlarının həyata keçirdiyi əməliyyat tədbirləri nəticəsində Bakı şəhər sakini, 1975-ci il təvəllüdlü Samir Aslanov saxlanılıb. Ondan 1 ədəd avtomat və üzərindən 10 qram heroin aşkar edilərək götürülüb.

S.Aslanov kriminal aləmdə "Dəli Samir" ləqəbi ilə tanınıb.

## Lənkəranda dayı diqqətsizlik edib maşınla bacısı oğlunu öldürdü



**Lənkəranda ağır yol qəzası baş verib. Lent.az xəbər verir ki, rayonun Ürgə kəndində "ZİL" markalı, 42 AC 521 dövlət qeydiyyat nişanlı yük maşını 15 yaşlı oğlanı vurub. Ağır xəsarət alan yeniyetmə hadisə yerində keçinib.**

Məlum olub ki, kənd sakini Söhbət Əsgərovun idarə etdiyi "ZİL" markalı yük avtomobili ilə vurduğu 15 yaşlı Ramal Əsgərov onun bacısı oğlu olub. S.Əsgərov maşını arxaya verərkən diqqətsizlik edib və yeniyetməni divara sıxaraq öldürüb. O, hadisədən sora fikirli olduğunu deyib.

## Sərhədi pozan güllələndi

**Mayın 1-də saat 21:30 radələrində Qusar rayonunun Yuxarı Zeyxur kəndi ərazisində meşə massivində 1 nəfər silahlı şəxsin Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini pozmağa cəhd göstərməsi müəyyən edilib.**

Qusar Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, saxlanılması ilə bağlı qanuni tələblərə tabe olmayan sərhəd pozucusu 1991-ci il təvəllüdlü Elvin Məmmədyarov hüquq-mühafizə orqanları əməkdaşlarına atəş açaraq silahlı müqavimət göstərib, cavab tədbiri olaraq xidməti silahdan istifadə olunmaqla zərərsizləşdirilib.

Faktla bağlı Qusar Rayon Prokurorluğunda müvafiq araşdırmalar aparılır.

YENİ MÜSAVAT

N 93 (6707) 3 may 2017

**Son zamanlar Bakıda və bölgələrdə baytarlıq xidməti əməkdaşlarının müsadirə etdikləri at-eşşək ətləri əhalinin qida təhlükəsizliyinə dair şübhələrini bir az da artırıb.**

# Deputat at və eşşək əti satanlara həbs cəzası tələb edir

## Eldar İbrahimov: “Vəziyyətdən çıxış yolu kimi belə ətlərin satışına görə cinayət məsuliyyəti nəzərdə tutulmalıdır”



Ötən həftə Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti ölkənin tanınmış qida şirkətlərindən “Elba” MMC-nin anbarından və şirkətə məxsus yükdaşıyan avtomobildən aşkarlanmış “mənşəyi məlum olmayan” tonlarla ətin mənşəyini müəyyən edib. “Elba” MMC hər nə qədər iddiaları yalan və şirkətə yönəlmiş qərəz adlandırsa da, Dövlət Baytarlıq Xidməti bu ətlərin ölmüş at ətləri və “aqoniya vəziyyətində kəsilmiş” inək əti olduğunu açıqlayıb.

Baytarlıq Xidmətinin bu istiqamətdə həyata keçirdiyi tədbirlər təqdirəlayiqdir. Amma təəssüflə qeyd etməliyik ki, qanunvericilikdə, insanların sağlamlığını düşünmədən bu cür fəaliyyətlə təhlükəyə atan sahibkarlara qarşı cinayət məsuliyyəti nəzərdə tutulmayıb. İşbazlar murdar olmuş at-eşşək ətini insanlara yedizdirir, hansısa məqamda saxlanıldığı zaman isə heç nə olmamış kimi ictimaiyyət arasında dolaşmağa başlayır. Və heç kim də həmin şəxslərin yenidən öz fəaliyyətlərini davam etdirməyəcəyinə dair zəmanət vermir...

**Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov modern.az-a deyib ki, bu cür ətlərin satışı qadağan olunsa da, Cinayət Məcəlləsində hər hansı məsuliyyət nəzərdə tutulmayıb:**

“Mən hesab edirəm ki, bu cür vəziyyətdən çıxış yolu kimi belə ətlərin satışına görə cinayət məsuliyyəti nəzərdə tutulmalıdır. Əgər Azərbaycanda at, eşşək əti yeyilmirsə, üstəlik, bunların ölmüş ətləri satışa çıxarılırsa, cinayət işinin açılması mütləqdir”.

**E.İbrahimov bildirib ki, təkliflər daxil olduğu halda, məsələyə müsbət cavab veriləcək:** “Bizə təklif daxil olarsa, məmnuniyyətlə qəbul edərik. İnzibati Məcəllə və Cinayət Məcəlləsi parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsindən keçir. Mən vətəndaşlarımızla tamamilə razıyam. Satışdakı ətlər bizim yediyimiz ətdən olmalıdır. Daha dana əti adı altında at-eşşək əti satılmamalıdır. At ətini dondurub istifadəyə verirlər. Bu kimi insanlara cəmiyyətdə yer olmamalıdır. Bunları təkcə İnzibati Xətalar Məcəlləsi ilə cərimələmək yox, cinayət məsuliyyətinə cəlb etmək lazımdır. Bunun üçün qanunvericilikdə dəyişiklik edilməlidir”.

**Komitə sədrinin fikrincə, son vaxtlar bu cür ətlərin satışının artmasının səbəbləri çoxdur:** “Ətin mənşəyi bilinməlidir. Dana əti adı ilə insanlara at-eşşək əti satmaq olmaz. Alverçinin xalqı, vətəni yoxdur? Necə yəni mən pulumu verim, sən mənə murdar ət sat? Bunu edən işbazlar oğrular, tüfeylilərdir. Onlara başqa ad vermək olmaz”.

**Hüquqşünas Əliməmməd Nuriyev də modern.az-a deyib ki, qanunda bu kimi şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı maddə yoxdur:** “Qanunda göstərilib ki, satılan məhsulun adı və tərkibi barədə məlumat verilməlidir. Digər tərəfdən, sanitar tələblərə cavab verməyən, keyfiyyətsiz mal-məhsul, ölü at, eşşək ətlərinin satılması ilə bağlı məsələdir. Gigiyena və Epidemiologiya Mərkəzinin rayon idarələri kəsilən ətin keyfiyyətini təsdiq etməlidir. Möhürsüz və baytarlıq xidmətinin tələblərinə cavab verməyən ətlər satıla bilməz”.

### Murdar əti sat, cəriməni ödə, get azadlıqda gəz...

**Ə.Nuriyevin sözlərinə görə, bu cür ətlərlə qidalanmadan sonra insan sağlamlığına zərər dəyibsə, nəticəyə görə, İnzibati Xətalar Məcəlləsində cinayət işi açıla bilər:**

“Amma insan sağlamlığına ziyan dəyməyibsə, keyfiyyətsiz qida, ət satışına görə məsuliyyətə cəlb oluna bilər. Məsuliyyət dedikdə, cərimələr nəzərdə tutulur”.

**Hüquqşünas qida təhlükəsizliyi ilə bağlı cəzaların sərtləşdirilməli olduğunu vurğulayıb:**

“İnsanların səhhətinə ziyan dəyə, hətta ölümlə nəticələnə, yaxud infeksion xəstəliklərə yoluxa bilər. Qanunvericilikdə infeksion xəstəliklərin yayılması və xəstəliyə tutulmanın mənbəyi ilə bağlı məsələ var. Əgər xəstəlik heyvan mənşəli qidaların keyfiyyətsizliyi ilə bağlıdırsa, bu zaman həm keyfiyyətsiz qida, həm də nəticəsi ilə bağlı məsuliyyətə cəlb etmək mümkündür.

Amma indiki halda, həmin şəxslər yalnız İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan cəriməni ödəyir, ona cinayət işi açılmır və həbs edilmir".



# Sosial ev üçün müraciətlərin qəbulu təxirə salındı

**Sosial evlərə sahib olmaq istəyənlərin mayın 1-dən elektron müraciət edə biləcəkləri açıqlansa da, hələlik vətəndaşlar gözləmə mövqeyindədirlər.**

Məsələ ilə bağlı “MİDA” Məhdud Məsuliyyətli Cəmiyyətindən modern.az-ın sorğusuna cavab olaraq bildirilib ki, sərəncamda olan mənzilləri güzəştlə əldə etmək hüququ olan vətəndaşların aidiyyəti sənədlərinin qəbuluna “Güzəştli mənzil” elektron sisteminin əsasnaməsi təsdiq olunduqdan sonra başlanılacaq.

“MİDA” Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzillərin güzəştlə əldə edilməsini təmin etmək məqsədilə “Elektron hökumət” portalında yaradılacaq “Güzəştli mənzil” elektron sisteminin istifadəyə verilməsi ilə bağlı hazırlıq işləri tamamlanmaq üzrədir.

Ötən müddət ərzində aidiyyəti dövlət orqanları ilə təşkil olunmuş səmərəli əməkdaşlıq nəticəsində güzəştlə mənzil əldə etmək hüququ olan vətəndaşlar tərəfindən təqdim olunmalı sənədlərin siyahıları dəqiqləşdirilib. Eyni zamanda təqdim olunacaq sənədlərin müvafiq qurumlar tərəfindən yoxlanılması müddətini minimuma endirərək vətəndaşların rahatlığını təmin etmək məqsədilə aidiyyəti məlumat bazalarının “Güzəştli mənzil” sistemi ilə inteqrasiyası üçün tədbirlər görülüb.

Sözügedən sənədlər güzəştlə mənzil əldə etmək hüququ olan şəxslərin aşağıdakı kateqoriyaları üzrə qruplaşdırılıb.

Bunlar gənc ailənin üzvü olan şəxslər: şəhid ailəsinin üzvü (əri/arvadı, övladları), Milli Qəhrəman (özü, əri/arvadı, övladları), məcburi köçkün və ya ona bərabər tutulan şəxs, ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs, ən azı 5 il dövlət ümumtəhsil məktəbində müəllim işləyən şəxs, fəlsəfə doktoru elmi dərəcəsi olan şəxs, idman sahəsində xüsusi xidmətləri olan şəxs (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçısı (I, II və ya III yer) olanlardır.

Qeyd edək ki, gənc ailə üçün yaş həddi 35-dir.

Eyni zamanda elmlər doktoru elmi dərəcəsi olan şəxs, ən azı 15 il dövlət qulluğunda qulluq edən şəxs, ən azı 3 il hərbi xidmətdə olan (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan başqa), həmçinin ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları, ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxslər də bu imkandan yararlana biləcəklər.

# Binəqədidə ölən xəstənin yaxınlarından həkimə şok ittihamlar

## Şikayətçi tərəf: “İynənin dozasının artıq olduğunu deyəndə həkim “mənim işimə qarışmayın" deyə, sərt reaksiya verdi"



**Bir neçə gün bundan əvvəl Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının əməkdaşlarını döyməkdə ittiham edilən ailə şikayətçidir.**

Lent.az-a müraciət edən ailə iddia edir ki, təcili tibbi yardım həkimi xəstəyə yüksək dozada iynə vurub və bu səbəbdən xəstə dünyasını dəyişib.

Ailə üzvlərinin dediyinə görə, həkim xəstəyə artıq dozada iynə vurduğunu inkar edir, halbuki günahkar həkimin özüdür: “Xəstənin təzyiqi 90-50 olduğu halda, həkim ona 2 qramlıq təzyiq salan iynə vurdu. Sonra 2 qramlıq relanium və başqa 2 iynədən istifadə etdi. Həmin dəqiqə xəstənin vəziyyəti ağırlaşdı. İynənin dozasının artıq olduğunu deyəndə isə bizə "mənim işimə qarışmayın" - deyə, sərt reaksiya verdi.

Xəstə öləndən sonra yaxasından tutub soruşduq ki, hansı iynəni vurdun? Qayıtdı ki, bəs, onsuz da xəstə öləcəkdi. Mən onu atama kömək etsin deyə həkim kimi çağırdım, əzrail kimi gəldi" - şikayətçi əlavə edir.

**Xəstənin ölümündə ittiham edilən həkim Rizvan Hacıyev isə iddia edir ki, ailə həkim çağırmaq üçün çox gecikib.**

**R.Hacıyev bildirib ki, xəstənin vəziyyəti 15 saat əvvəldən ağırlaşıb, xırıltılar başlayıbmış:** “77 yaşlı xəstə çox ağır vəziyyətdə idi. Xəstədə metastaz vermiş ağciyər xərçəngi olub. O cür xəstələrdə ağciyər səthi çox zəif olduğundan dördüncü dərəcəli tənəffüs çatışmazlığı da müşahidə edilir. Xəstə bundan əvvəl bir dəfə ağciyər əməliyyatı keçirib, ağciyərinin bir hissəsini kəsiblər. 1 ay bundan əvvəl ağciyərindən 3 litr maye çıxarılıb. Ancaq ailə onu elə ağır vəziyyətdə saxlayıb. Çox gecikmiş xəstə olub. Dördüncü dərəcəli tənəffüs çatışmazlığı olan xəstə ölümün bir addımlığında olur. Xəstənin ölümünün birinci səbəbi də onu 15 saat elə vəziyyətdə saxlamaqdır. Xəstənin dili ağzından çıxır, deyirlər ki, yardım elə. Onların özlərinin xəstənin ölümündə marağı olub. Məqsədlərinin nə olduğunu bilmirəm. Belə anlamaq olar ki, bu, ailənin məkrli siyasəti olub”.

**Həkim deyir ki, meyitin tibbi ekspertizasından sonra hər şey bəlli olacaq:** “Ailə iddia edirsə ki, xəstənin ölümündə biz günahkarıq, qoy meyit yarılsın, hər şey ortaya çıxacaq. Mən protokol qaydasında orada heç bir səhv etməmişəm. Artıq dozada heç bir iynə vurmamışam. Protokolla işləmişəm. O dedikləri iynə də damara vurulur, amma biz xəstənin durumu ağır olduğundan əzələyə vurduq. Onun hansısa yan təsirindən söhbət gedə bilməz. Əksinə, iynə heç təsir etmədi deyə xəstəyə kömək edə bilmədik. Hüquq-mühafizə orqanları tərəfindən bu istiqamətdə işlər davam etdirilir. Ekspertizadan keçmişəm, onların da meyiti ekspertiza üçün Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə verilib. Mən özüm tələb edirəm ki, xəstənin meyiti yarılsın. 30 illik təcrübəm var. Bizim işdə belə hallar çox olur. Adi qəfil ölümlər olur ki, onda ailənin qohumu bizə yumruq atsa, başımın qanını silib işimin dalınca gedərəm. Amma bu xəstə artıq ölümə hazır idi. Günahkar onlar özüdür. Ölümün səbəbini kiminsə üzərinə yıxmaq istəyiblər. Bu da mənim başımda çatladı”.

**Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyindən verilən məlumata görə, meyitin ilkin müayinələri zamanı bəlli olub ki, xəstənin ağciyəri tamamilə məhv olubmuş:** “Xəstədə çox ağır metastaz vermiş ağciyər xərçəngi olub. Ölümünə qədər onun necə nəfəs aldığı özü möcüzədir. Dalaq və digər daxili orqanlar metastaza uğramış vəziyyətdə idi. Yəni ailənin iddia etdiyi kimi, xəstənin ölümündə hansısa iynənin təsiri olmayıb. İynə sakitləşdirici iynə olub. Xəstə ölümcül vəziyyətdə imiş”.

Qeyd edək ki, aprelin 24-də "103" çağrı mərkəzinə edilən zəng əsasında Binəqədi rayon 17 saylı köməkçi yardım stansiyasına məxsus təcili yardım avtomobili Qaradağ rayonunun Müşfiqabad qəsəbəsindən Sulutəpəyə yollanıb. Xəstənin yaxınları stansiya əməkdaşlarının vurduğu iynədən sonra xəstənin öldüyünü iddia edərək həm həkimi, həm də sürücünü döyüblər.

YENİ MÜSAVAT

Son səhifə

N 93 (6707) 3 may 2017

# Bəy öz toyuna pulla 200 yalançı qohum dəvət etdi

Çində öz toyuna qohum adı altında 200 nəfərə yaxın adam dəvət edən şəxsi saxlayıblar. Bu barədə "BBC News" xəbər verir. Gəlinin qohumları oğlan evi adından gələn şəxslərin bəyi haradan tanıdığını izah edə bilmədiyi üçün şübhələnib. Şübhələr gəncin valideynləri toya gələ bilməyəndə güclənib. Tezliklə aydın olub ki, bəyin qonaqları pulla tutulublar. Toyda iştirak etmələri üçün onların hər birinə 80 yuan vəd edilib. Onlardan bir neçəsi etiraf edib ki, adi taksi sürücüsü kimi çalışır, digərləri isə tələbə olduqlarını deyiblər. Hələ də bəyin belə bir yalana niyə baş vurduğu aydın olmayıb. Gəlin iddia edir ki, 3 illik münasibətləri dövründə oğlanda qeyri-adi heç nə hiss etməyib. Qeyd olunur ki, onların tamam fərqli dost-tanış çevrəsi var. Yerli KİV-lərin versiyasına görə, bəyin bu hərəkəti etməsinə qız evinin onun kasıb maddi durumunu müzakirə etməsi səbəb olub. O, həqiqi qohum və dostlarını biabırçılıqdan qurtarmağa çalışıb.

Martda isə məlum olmuşdu ki, Çində gəlin toyuna gəlməyən bəyi yolun ortasında sürüyüb.




# Dəniz donuzu Yeni Zelandiyada polis oldu



Yeni Zelandiyada Elliot ləqəbli dəniz donuzu yeni polis sıralarına daxil olub və nəqliyyatda yüksək sürətə qarşı mübarizə aparacaq. Bu barədə hüquq-mühafizə orqanlarına aid facebook səhifələrində qeyd olunub. Elliot polis postunda dayanaraq insanlara "Asta maşın idarə etmək təhlükəsizlik deməkdir" mesajını verir. Heyvanın üzərində yazılmış yazılarda eyni zamanda qeyd olunur ki, bütün hallarda uşaqları nəzərə almaq lazımdır. Çünki uşaqlar küçələrdə gəzirlər, velosiped sürürlər, yolları keçirlər: "Onlar kiçikdirlər və müdafiəyə ehtiyac duyurlar. Bunu yaddan çıxarmayın və ehtiyatlı olun!"

Yerli medianın yazdığına görə, Elliot özü bu mesajı hamıya çatdırmaq üçün tələsmir. Baxmayaraq ki, saatda 9 kilometr məsafə qət edə bilir. Daha öncə də ABŞ-ın müxtəlif ştatlarında buna bənzər hadisələr baş verib. Belə ki, yerli polis orqanları ya narkotiklərlə mübarizədə, ya da ayrı-ayrı cinayətkarların yaxalanmasında müxtəlif növ heyvanlardan istifadə ediblər. Onlara simvolik olaraq polis geyimlərinin atributları verilib və yerli mediada da "polis orqanlarının nümayəndələri" kimi təqdim olunub.



## Uşaqların pampersini iyləyəcək alət yaradıldı

Koreyanın Monit firması maraqlı bir məhsul istehsal edib. Bu məhsul balaca uşaqların pampersini nə zaman dəyişmək lazım olduğunu xəbər verir. Lenta.ru saytı xəbər verir ki, sözügedən məhsulla iş sistemi smartfon vasitəsilə baş tutur. Belə ki, artıq valideynlər uşağın pampersini iyləmək məcburiyyətində deyillər. Proses zamanı alət eyni zamanda havanın tərkibini, temperaturunu və nəmişlik dərəcəsini yoxlayır. Bununla paralel, onu uşağın əyninə də yerləşdirmək olar.

Alətin yaradıcısı Toni Park deyir ki, bu kəşfi təsadüfən olmayıb: "Mənə öz uşaqlarımın hansı səbəbdən ağlaması, qışqırması, niyə yatmaması hər zaman qaranlıq qalıb. Mən hər zaman onların davranışını anlamağa çalışmışam".

O, eyni zamanda uşaqlar üçün daha praktik "kenqurular" da istehsal edib. Onun sözlərinə görə, bu alət digər kenqurulardan daha üstündür və valideynin çiyinlərinə ağrı düşməməsi üçün hesablanıb. Kampaniya bu kəşflərini gerçəkləşdirmək üçün C-Lab proqramı çərçivəsində maddi dəstək alıb. Bu alətlərin satışına avqust ayından etibarən start veriləcək. Hələlik onlar ancaq Koreyada satılır.

## Qoroskop




**QOÇ** - Bu gün işdən daha çox müzakirələrə vaxt ayırın. Çünki apardığınız söhbətlər yaxın yarım ilin perspektivlərinə birbaşa təsir göstərəcək. Hər bir danışıq detalına xüsusi diqqət yetirin.

**BUĞA** - Bu gözəl gündə bütün gücünüzü beyninizi artıq yüklərdən təmizləməyə həsr edin. Paralel iş və münasibətlər sizi bərk yorduğu üçün bir qədər təcrid olunun. İşdə özünüzü çox da yormayın.

**ƏKİZLƏR** - Ümumi mənada düşərli vaxtdır. Əvvəlki günlərin gərginliyindən əsər-əlamət qalmayacaq. Saat 14-dən sonra gücünüzə güc qata bilən insanlarla görüşləriniz mümkündür ki, bundan imtina etməməlisiniz.

**XƏRÇƏNG** - Nahara qədər emosional sabitliyinizi qorumağa çalışın. Dəyərsiz şeylər barədə düşünüb enerjinizi azaltmayın. İndi sizə etibarlı dostlar və pul lazımdır ki, buna da dediklərimiz sayəsində çata bilərsiniz.

**ŞİR** - Düşünməyin ki, qarşınızda duran vəzifələri yerinə yetirmək mümkünsüzdür. Əslində daxili tənbəlliyinizi bir kənara atmaqla, məsləhətlərdən yararlanmaqla hər şeyə nail ola bilərsiniz.

**QIZ** - Qarşınızda nə qədər planlarınız varsa, hamısını günün ikinci yarısına saxlayın. Çünki məhz deyilən ərəfədə uğur məqamlarınız başlayacaq. O vaxta qədərsə ənənəvi fəaliyyətlə məşğul olun.

**TƏRƏZİ** - Qarşınızda maraqlı bir təqvim durub. İstər qarşılıqlı münasibətlərdə, istərsə də fəaliyyət müstəvisində sizi qane edən proseslərlə rastlaşacaqsınız. Səfərlər planınızı isə bugünlük təxirə salın.

**ƏQRƏB** - Kosmik fon bürcünüzə əsrarəngiz bir gün yaşadacaq. Hər kəslə mülayim və ədalət çərçivəsində davranın ki, rəğbət qazanasınız. Səfərə çıxmaq uğurlu olsa da, axşam saatlarında diqqətli olun.

**OXATAN** - Ünsiyyətdə olduğunuz hər kəsi ittiham etməkdənsə bir qədər öz üzərinizdə redaktələr edin. Dar macalda enerjinizi heç olmasa, sevgidən alın. Bu gün həqiqətə söykənmək, bağışlamaq çox gözəl olar.

**OĞLAQ** - Tanrının ixtiyarınıza verdiyi bu təqvimdən pis heç nə gözləməyin. Əgər günaha aparan işlərdən uzaq dursanız, müjdələrin şahidi olacaqsınız. Az qala unutduğunuz qohumlarınızla əlaqə yaradın.

**SUTÖKƏN** - Təxminən saat 12-yə qədər daxili gərginliyiniz xeyli səngiyəcək. Bu da rastlaşdığınız hadisələrdən doğacaq. Amma gərək siz də situasiyalara müvafiq davranasınız. Duzlu qidalardan qaçın.

**BALIQLAR** - Bacardığınız qədər bu təqvimi təmkinli şəkildə yola salın. Başqalarının şəxsi işlərinə müdaxilə etməyin. Daha çox adi işlərin həlli ilə məşğul olun. Bu gün qurban kəsmək, ziyarətə getmək çox düşərlidir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Bu tortların üzərində təhqir yazılır




Nyu-Yorkda yeni bir şirniyyat evi açılıb. Bu ev internetdə yayılan təhqiramiz statusların tortların üzərinə yerləşdirilməsi üzrə ixtisaslaşıb. 35 dollara konditerlər şəbəkə trollarından birini tortun üzərinə həkk edib, satışa çıxarırlar. İnternetdə insanların xətrinə dəyən şəxsin ünvanını tapmaq üçün əlavə ödəniş tələb olunur. Kampaniya eyni zamanda Donald Trampın əcaib sitatlarını da torun üzərinə həkk edir və onu Ağ Evə göndərir. Bu xidmət isə 30 dollar dəyərindədir. Məhsulların nümunəsini servisin saytında görmək mümkündür. Məsələn, tortlardan birinin üstündə "Ümid edirəm ki, tezliklə öləcəksən" sözləri yazılıb. Digər tortun üstündə yazılana görə isə onu göndərən şəxs artıq çəkidən əziyyət çəkir. Daha bir tortun üstündə onu alacaq şəxsə "cadugər eşşək" sözləri "hədiyyə" edilib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100